RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 27 (8343) ŞƏNBƏ, 8 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Böyük sosial paketin yeni dalğası

## Prezident İlham Əliyevin davamlı islahatları nəticəsində ölkədə bütün növ əmək pensiyaları yenidən artırıldı

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Elə bu səbəbdən də dövlətlərin demokratiklik əmsalı təkcə sosial-iqtisadi inkişaf göstəriciləri ilə deyil, eyni zamanda hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir.

Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllinə prioritet vəzifə kimi yanaşır və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Xüsusilə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunur, bu kateqoriyaya aid olan insanlara mənzillər, avtomobillər verilir, güzəştlər edilir və müxtəlif kompensasiyalarla təmin edilirlər.

Bir sözlə, sosial sahə üzrə görülən işlər bir tərəfdən Azərbaycan dövlətinin gücünü, digər tərəfdən də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin effektivliyini, reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir.

Son 16 ildə orta aylıq əməkhaqqının 11 dəfə, orta aylıq pensiyanın 8 dəfə, həmçinin müavinət və təqaüdlərin dəfələrlə artırılması bunun əyani sübutudur.

2019-cu ilin əvvəlindən başlayaraq dövlət başçısının imzaladığı fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan olan vətəndaşların rifah halını daha da yüksəldib. Prezidentin 2 sosial paketi ümumilikdə 4,2 milyon nəfəri əhatə edib. İki sosial paket çərçivəsində reallaşan uğurlu göstəricilərə nəzər yetirdikdə bunu aydın şəkildə görə bilərik. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 72,4 faiz, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, yeni təqaüd növləri təsis edilib. Ümumən Prezidentin aylıq təqaüdləri ilə təminat proqramı 5 dəfəyə yaxın genişlənib. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerdədir.

Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev bu məsələyə toxunaraq vurğuladı ki, Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Dövlətin artan iqtisadi gücü ölkəmizin güclənməsinə, ilk növbədə xalqın rifah halının yaxşılaşmasına yönəlməlidir və Azərbaycan hökuməti bunu həyata keçirir: "Ona görə sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır".

Fevralın 6-da isə dövlət başçısının böyük sosial paketi çərçivəsində pensiyalar 16,6 faiz artırıldı. Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 6 fevral 2020-ci il tarixli sərəncamı pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti mühüm addım idi. Sərəncamın icrası olaraq, 2020-ci ilin 1 yanvar tarixinə 2019-cu il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırılır.

Bu artım Prezident İlham Əliyevin tapşırığı ilə ötən il sosial ödənişlərin artırılması sahəsində inqilabi addımların atılmasını təmin edən, 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olan uğurlu sosial islahatların 2020-ci ildə də davam etdiyini göstərir.

Sərəncamla pensiyaların orta aylıq əməkhaqqının 2019-cu il üzrə artım göstəricisinə uyğun şəkildə indeksləşdirilərək 16,6 faiz artırılması sığorta prinsipi ilə pensiya alan bütün pensiyaçıları (pensiyaçıların 93 faizi və ya 1 milyon 120 minə yaxını) əhatə edəcək.

Ardı 3-cü səh.

# Qəbələ rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpünün tikintisi və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun bərpasının başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,9 milyon (səkkiz milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2020-ci il*

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Fevralın 7-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın yanvarın 29-da və 30-da keçirilmiş iclaslarının protokolları təsdiq olunub.

Sonra fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb və sözügedən siyasi partiya tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Daha sonra iclasda Milli Məclisə seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Müraciətlərlə bağlı aparılan geniş müzakirələrdən sonra bir namizədin qeydə alınmasına dair müvafiq dairə seçki komissiyasının qərarı ləğv edilərək namizədə verilmiş vəsiqə etibarsız hesab olunub.

Beynəlxalq müşahidə missiyalarının, xarici qurumların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda seçkilərlə bağlı cari məsələlərə də baxılıb.

# Azərbaycan beynəlxalq əməkdaşlığın uğurlu platformasıdır

## Bakı növbəti dəfə Rusiya-NATO danışıqlarına evsahibliyi etdi

Azərbaycanın mürəkkəb regionun lider dövlətinə, qlobal miqyasda söz sahibinə çevrilməsi gənc bir dövlət üçün böyük nailiyyətdir. Bu yolda aşırımlardan inamla keçən, qarşıya çıxan maneələri uğurla dəf edən respublikamız bu gün öz siyasətinin prioritetlərini qətiyyət və inamla reallaşdırır. Təcrübə də göstərir ki, Azərbaycanın yürütdüyü siyasət həm region, həm də beynəlxalq səviyyədə pozitiv geosiyasi prosesləri stimullaşdırır. Belə ki, Azərbaycan öz müstəqil siyasəti ilə yalnız əməkdaşlıq və inteqrasiya istiqamətində fəaliyyət göstərir.

### Müstəqil siyasətin təzahürü

Rusiya-NATO dialoqunun Bakıda keçirilməsinin artıq ənənə halını alması da Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyi və nüfuzu ilə bağlıdır. Belə ki, müxtəlif qütblərdə dayanan tərəflərin danışıqlar üçün məhz Bakını seçməsi Azərbaycan dövlətinin həyata keçirdiyi müstəqil siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanmasının və qəbul edilməsinin əyani təsdiqidir. Növbəti belə görüş fevralın 6-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Volters və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi-Müdafiə nazirinin birinci müavini Valeri Gerasimov arasında keçirildi.

Ardı 4-cü səh.

Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda ötən bir il ərzində görülən işlərə qiymət verilməklə qarşıda duran vəzifələr müəyyənləşdirildi. Həmçinin bu sahədə olan nöqsanların aradan qaldırılması üçün dövlət başçısı tərəfindən ciddi tapşırıqlar verildi.




# Dövlət proqramlarının bir hədəfi də qeyri-neft sektorunun inkişafını sürətləndirməkdir

## Bu istiqamətdə ötən il geniş tədbirlər həyata keçirilmişdir

Məlum olduğu kimi, 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən ilk Dövlət Proqramı bölgələrin inkişafında mühüm rol oynamışdır. Həmin proqramın icrası sayəsində regionlarda illərlə yığılıb qalan sosial-iqtisadi problemlərin bir qismi həll olunmuşdur. Bu sahədə görülən işləri davam etdirmək üçün ikinci və üçüncü proqramlar qəbul edilmişdir. Həmin proqramlarda nəzərdə tutulan işlərin icrası sayəsində də regionların problemlərinin çox hissəsi həll olunmuşdur. Lakin hələ görüləsi işlər çox idi. Bunun üçün bir il əvvəl növbəti dördüncü Dövlət Proqramı qəbul edildi.

Ümumiyyətlə, dövlət proqramlarının qəbulundan keçən müddət ərzində regionlarda 58 min kilometr yeni qaz xətləri, su təchizatının yaxşılaşdırılması üçün 13 min kilometr içməli su xətti çəkilib, 470-ə yaxın modul tipli sutəmizləyici qurğular quraşdırılıb, 706 min nəfər əhali içməli su ilə təmin edilib, uzunluğu 16 min kilometrdən çox olan yollarda təmir-tikinti işləri aparılıb, 470 körpü və tunel istifadəyə verilib.

Bölgələrdə həyata keçirilən sosial-iqtisadi layihələr çərçivəsində son 16 ildə 3300-dən çox məktəb, yüzlərlə uşaq bağçası və tibb müəssisələri tikilib və ya əsaslı təmir edilib. Bunun sayəsində təhsil və səhiyyənin səviyyəsi yüksəlib, yerli əhalinin müalicə üçün Bakıya axınının qarşısı xeyli alınıb. İndi bölgələrdə müasir tibb avadanlıqları ilə təchiz edilən şəfa ocaqlarında çətin cərrahi əməliyyatlar da icra olunur.

Məlum olduğu kimi, ölkə sənayesinin çox hissəsi Bakıda cəmləşmişdir.

Ardı 5-ci səh.

# Xaçmazda ilk Kiçik və Orta Biznes Evi istifadəyə verilib

Açılış mərasimində çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkarlığın rolunun artırılmasının, xüsusilə kiçik və orta biznesin əsas hərəkətverici amilə çevrilməsinin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların prioritet istiqamətlərindən olduğunu vurğulayıb.

Nazir qeyd edib ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda dövlət başçısı kiçik və orta sahibkarlığın inkişafı, həmçinin orta müddətli dövrdə ÜDM-in əsas hissəsinin bu sektorun hesabına formalaşması, məşğulluğun təmin olunmasında payının artırılması kimi yeni hədəflər müəyyən edib. Xaçmazda KOB Evinin və KOB İnkişaf Mərkəzinin yaradılması KOB-lara göstərilən dövlət dəstəyi tədbirlərinin davamı olmaqla, sahibkarların xidmətlərə rahat, maneəsiz və şəffaf çıxışının təmin olunması baxımından əlverişli platformadır.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev KOB Evinin Xaçmazda və ətraf rayonlarda sahibkarların işini asanlaşdıracağını, kiçik və orta biznesin inkişafını, yeni KOB subyektlərinin yaranmasını stimullaşdıracağını, rayonun iqtisadi potensialının daha dolğun reallaşdırılmasında əhəmiyyətini qeyd edib.

Ardı 3-cü səh.

# 9 fevral Milli Məclisə seçkilər günüdür

## Parlament seçkiləri ölkənin inkişafına töhfə verəcək







Prezident İlham Əliyevin 2004-cü il fevral ayının 11-də imzaladığı regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramından sonra digər rayonlar kimi, Salyan da dirçəliş yoluna qədəm qoydu.

İkinci, üçüncü Dövlət proqramları çərçivəsində tikinti, quruculuq, abadlıq işləri genişləndirildi, fəaliyyətini dayandıran bir çox sənaye müəssisələri işə salındı, həyata keçirilən islahatlar nəticəsində aqrar sahədə əsaslı dönüş yarandı, kənd əhalisi üçün yeni iş yerləri açıldı.

2019 - 2023-cü illəri əhatə edən dördüncü Dövlət Proqramının birinci ili də Salyan rayonu üçün uğurlu olmuşdur. Dövlətin pambıqçılara göstərdiyi diqqət və qayğı nəticəsində keçən il rayonda pambıq əkilmiş 4 min 788 hektar sahədən 15 min 861 ton “ağ qızıl” toplanmış, hər hektardan 33,8 sentner məhsul əldə edilmişdir. Qazanılan iqtisadi nailiyyətlər kənd zəhmətkeşlərinin rifah halının yüksəlməsinə şərait yaratmışdır. Respublikamızda ardıcıllıqla aparılan islahatlar Salyan rayonunun əhalisi tərəfindən də böyük rəğbətlə qarşılanır. Onlar fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə fəal iştirak etməyi qarşılarına məqsəd qoymuşlar və ictimai-siyasi tədbirə əmək uğurları ilə gedirlər.

Məntəqələr isə hazır vəziyyətdə seçiciləri gözləyir. 69 saylı Salyan dairə seçki komissiyası üzrə 40 məntəqədə 39 min 800 nəfər seçici vardır. DSK sədri Səlamət Kərimovun dediklərindən məlum oldu ki, deputatlığa 8 nəfər namizəd seçki marafonuna qoşulmuşdur. 3 nəfərin namizədliyi siyasi partiyalar tərəfindən, 5 nəfərin namizədliyi öz təşəbbüsləri ilə irəli sürülmüşdür. Təşviqat kampaniyası bərabərlik şəraitində keçib. Namizədlər seçicilərlə görüşüb, platformaları, seçiləcəyi halda hansı məsələlərə daha çox diqqət yetirəcəkləri haqda məlumat vermişlər. S.Kərimov onu da vurğuladı ki, dairə üzrə ilk dəfə səs verən gənclərin sayı 71, yaşı 100-dən çox olan seçici 2 nəfərdir. Dairə üzrə 548 nəfər yerli müşahidəçi qeydə alınmışdır. 8 məntəqədə veb-kamera quraşdırılıb. Bütün məntəqələr lazımi avadanlıqlarla təchiz olunmuşdur. ATƏT-in uzunmüddətli müşahidəçiləri dairə və məntəqələrdə olmuş, seçkilərə hazırlığın vəziyyəti ilə tanış olmuşlar.

Dairə seçki komissiyasının nəzdindəki 9 saylı məntəqədə də olduq. Bu məntəqə Salyan şəhərindəki 4 saylı tam orta məktəbdə fəaliyyət göstərir. Məntəqə seçki komissiyasının sədri Fərqanə Əsgərova bildirdi ki, məntəqə üzrə 12 min 25 nəfər seçici var. Onların 9 nəfəri ilk dəfə səs verəcək. Burada ən yaşlı seçicilər 96 yaşlı Mələk Məmmədova və 91 yaşlı Əliağa Babayevdir. 9 nəfər seçici səhhəti ilə əlaqədar seçki günü məntəqəyə gələ bilməyəcəyi barədə əvvəlcədən məlumat vermişdir. Məntəqə seçki komissiyasının üzvü müşahidəçilərin biri ilə daşınan qutunu aparıb onlara baş çəkəcək, səs vermələrini təmin edəcəklər.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

## Hazırlıq yüksək səviyyədə aparılıb

Sabat Əhmədovanın 117 yaşı var. O, 98 saylı Şəmkir şəhər seçki dairəsinin 6 saylı məntəqəsində səs verəcəkdir. Məntəqə seçki komissiyasının üzvləri onun evində olmuş, parlament seçkilərində iştirakını təmin etmək üçün onun yaşadığı mənzilə daşınan seçki qutusunun gətiriləcəyini bildirmişlər. Lakin Sabat nənə etiraz edərək demişdir ki, onun özü məntəqəyə gələrək səs verəcəkdir. Başqa bir seçici - 103 yaşlı Zeynəb Məmmədova da seçki məntəqəsinə gələrək səs verməyi qərara alıb.

Dairə seçki komissiyasının sədri Abdulla Sadıqov deyilənlərə onu da əlavə etdi ki, seçicilərin siyahısı dəqiqləşdirilərkən yaşı 90-nı keçmiş 698 nəfər, ilk dəfə səs verəcək 121 nəfər qeydə alınmışdır. Yaşlı insanlarla söhbətlər aparılmış, gənclərlə keçirilən görüşlərdə bu siyasi kampaniyanın əhəmiyyəti barədə onlara ətraflı məlumat verilmişdir.




Dairəni əhatə edən 34 məntəqənin hər biri seçkilərə tam hazırdır. Seçki komissiyaları tələb olunan normativ aktlar, sənədlər, sənəd nümunələri ilə təmin olunmuşdular. Milli Məclisə mandat almaq uğrunda mübarizə aparan 9 namizədin hər birinə bərabər şərait yaradılmış, seçicilərlə görüşmələri üçün qapalı yerlər və açıq meydançalar ayrılmışdır. Namizədlər özləri də etiraf edirlər ki, hazırlıq yüksək səviyyədə aparılıb.

98 saylı Şəmkir seçki dairəsində yerli və beynəlxalq müşahidəçilərlə yanaşı, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün hər cür şərait mövcuddur. Şəffaflığın təmin olunması üçün 12 məntəqədə veb-kamera quraşdırılmışdır. Seçkilərin gedişini izləmək üçün 377 müşahidəçi qeydiyyatdan keçmişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Viktor QUMİNSKİ: “Azərbaycanda seçkilərin demokratik və şəffaf keçirilməsi üçün lazımi şərait yaradılıb”



Xarici İşlər naziri Elmar Məmmədyarov MDB müşahidə missiyasının rəhbəri və MDB icraçı katibinin birinci müavini Viktor Quminskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Viktor Quminski Azərbaycanda keçiriləcək parlament seçkilərinin müşahidə edilməsi barədə məlumat verərək 252 nəfərdən ibarət MDB müşahidə missiyasının bütün ölkə ərazisi üzrə seçkiləri müşahidə edəcəyini diqqətə çatdırıb. O, seçki məntəqələrinin seçkilərə tam hazır olduğunu, seçkilərin azad, demokratik, ədalətli və şəffaf şəkildə keçirilməsi üçün bütün lazımi şəraitin yaradıldığını qeyd edib.

Elmar Məmmədyarov öz növbəsində, ümumiyyətlə, ölkədə seçki prosesinin sərbəst və demokratik mühitdə keçdiyini qeyd edərək bütün yerli və xarici müşahidəçilərin, o cümlədən MDB-nin müşahidə missiyasının fəaliyyəti üçün hər cür imkanların yaradıldığını bildirib.

Görüş zamanı, həmçinin MDB ölkələri daxilində iqtisadi-ticari, siyasi, humanitar və digər sahələrdə sıx əməkdaşlıq və MDB məkanında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## Hikmet EREN: “Azərbaycanda çox gözəl seçki mühiti var”

“Müşahidələrimə əsasən deyə bilərəm ki, Azərbaycanda çox gözəl seçki mühiti var”.



AZƏRTAC xəbər verir ki, bu fikirləri secki-2020.az saytına açıqlamasında türkiyəli ictimai xadim, Avrasiya İqtisadi Əlaqələr Dərnəyi İdarə Heyətinin rəhbəri, “EkoAvrasiya” jurnalının baş redaktoru Hikmet Eren bildirib.

“Azərbaycan demokratik dəyərlərin möhkəmləndirilməsi istiqamətində ciddi uğurlar əldə edib. Bu seçkilərdə daha güclü rəqabətin olduğunu deyə bilərəm. Parlament seçkiləri Azərbaycandakı sosial şəbəkə istifadəçilərinin əsas mövzusudur. Burada aparılan müzakirələr, edilən paylaşımlar deməyə əsas verir ki, ölkədə demokratik seçki mühiti mövcuddur. Bu mühit azad və ədalətli seçkilərin keçirilməsi üçün münbit zəmin yaradıb”, - deyə H.Eren bildirib.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 21/125**

### Mərkəzi Seçki Komissiyasının 29 yanvar və 30 yanvar 2020-ci il tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 29 yanvar və 30 yanvar 2020-ci il tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*07.02.2020-ci il*

**Qərar № 21/127**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 7 fevral 2020-ci il tarixli 1522 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 86 saylı İsmayıllı seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) sədri Ə.B.Məhərrəmov 2020-ci fevralın 7-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 86 saylı İsmayıllı seçki dairəsi üzrə qeydə alınmış namizəd Şahvələdov Məzahir Səfər oğlunun ikili vətəndaşlığının olması barədə komissyaya məlumat daxil olduğunu bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Bununla əlaqədar qeydə alınmış namizəd M.S.Şahvələdovun seçki sənədləri dairə seçki komissiyasından tələb olunaraq nəzərdən keçirilmiş və müəyyən edilmişdir ki, o, 86 saylı İsmayıllı seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürməsi barədə bildiriş və öhdəlik ərizəsini 2019-cu il dekabrın 14-də dairə seçki komissiyasına təqdim etmiş, öhdəlik ərizəsində Azərbaycan Respublikasının vətəndaşı olduğunu, seçkilərdə iştirak etmək hüququna malik olduğunu, ikili vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olmadığını öz imzası ilə təsdiq etmişdir. Dairə seçki komissiyasının 15 dekabr 2019-cu il tarixli iclasında namizədliyi təsdiq olunaraq ona imza vərəqələri verilmiş, o, namizədliyinin müdafiəsi üçün imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, 27 dekabr 2019-cu ildə qeydə alındıqdan sonra ona deputatlığa qeydə alınmış namizəd vəsiqəsi verilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, 86 saylı İsmayıllı seçki dairəsi üzrə qeydə alınmış namizəd M.S.Şahvələdov Rusiya Federasiyasının vətəndaşlığını əldə etdiyinə görə 30 yanvar 2019-cu il tarixdə ona bu ölkə vətəndaşına məxsus olan müvafiq seriyalı pasport verilmişdir.

Bununla da Azərbaycan Respublikasının vətəndaşı olan M.S.Şahvələdovun həm də Rusiya Federasiyasının vətəndaşı olması faktı aşkar edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinin II hissəsində təsbit olunmuşdur ki, ikili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 13.3.3-cü maddəsinə görə isə ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşının ikili vətəndaşlığı qalanadək Milli Məclisin deputatı seçilmək hüququ yoxdur.

Beləliklə, ikili vətəndaşlığı olan M.S.Şahvələdovun deputatlığa namizədliyinin qeydə alınması Azərbaycan Respublikası Konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə zidd olmuşdur.

Buna görə də 86 saylı İsmayıllı seçki dairəsi dairə seçki komissiyasının 27 dekabr 2019-cu il tarixli 49/116 saylı qərarı ləğv edilməli və qeydə alınmış namizəd M.S.Şahvələdovun 2 yanvar 2020-ci il tarixli 05 nömrəli deputatlığa qeydə alınmış namizəd vəsiqəsi etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 85-ci, Seçki Məcəlləsinin 19.4-cü, 13-cü, 25.2.1-ci, 25.2.22-ci, 28.2-ci, 148.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 86 saylı İsmayıllı seçki dairəsi üzrə qeydə alınmış namizəd Şahvələdov Məzahir Səfər oğlunun Rusiya Fedreasiyasının vətəndaşı olması faktının aşkar olunması ilə əlaqədar yaranmış Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinə zidd olan hallar nəzərə alınaraq həmin seçki dairəsi dairə seçki komissiyasının onun deputatlığa namizədliyinin qeydə alınması haqqında 27 dekabr 2019-cu il tarixli 49/116 saylı qərarı ləğv edilsin, həmin dairə seçki komissiyası tərəfindən M.S.Şahvələdova verilmiş 2 yanvar 2020-ci il tarixli 05 nömrəli deputatlığa qeydə alınmış namizəd vəsiqəsi etibarsız hesab edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*07.02.2020-ci il*

**Qərar № 21/126**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Azərbaycan Ümid Partiyası (Ümid Partiyası) Ali Məclisinin sessiyasının qərarı ilə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir. Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə aşağıdakı şəxslər Ümid Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Şakir Bahatur oğlu Həsənalıyev
Mahir Bəxtiyar oğlu Abdıyev
Fərhad Yusif oğlu Novruzov
Möhlüd İbrahim oğlu İbrahimov
Elsevər Xəlil oğlu Xəlilov
Mehdi Ağasi oğlu Məmmədov
Fərhad Müzəffər oğlu Nəbiyev
Nəsir Abış oğlu Nəcəfov
Xalis İlqar oğlu Salahov
Qəzənfər Əlihəsən oğlu Ələkbərov
Nəsimi Ağasəməd oğlu Novruzov
Kamalə Əyyub qızı Qasımova
Mirzağa Əşrəf oğlu Əzizov
Turab Yağanali oğlu Mahmudov
Ayxan Rizvan oğlu İsmayılov
Vüqar Təkoğlan oğlu Əliyev
İsa Əlisa oğlu İsayev
Rüfət Nizami oğlu Qasımov
Əfqan Şadulla oğlu Xanışov
Şahmar İbrahim oğlu İbrahimov
Sərdar Şirin oğlu Şərəfxanov
Neman Rəfail oğlu İbrahimov
Qabil Əhməd oğlu Quluyev
Münasib Əkbər oğlu Məmmədov
Ramazan Xıdır oğlu Ramazanov
Sucəddin Məmməd oğlu Əliyev
Namiq Marks oğlu Ağayev
Elçin Xanlar oğlu Rüstəmov
Mahir Əhməd oğlu Əliyev
Əli Süleyman oğlu Kərimli
Elnur Elçin oğlu Əzizov
Ayvaz İsmayıl oğlu Abdullayev
Zamin Qismət oğlu Mehbayev
Qəhrəman Qəmil oğlu Atakişiyev
Abdusalam Abdumalik oğlu Qoqayev
Elnur Akif oğlu Abbasov
Habil Əlibaba oğlu Əlifov
Aleksandr Valeryeviç Çesnokov
Emil Səxavət oğlu Abasov
Elşad İbrahim oğlu Əliyev
Mətanət Alı qızı Kərimova
Qurban Xandəmir oğlu Hacıyev
Ramin Kəmaləddin oğlu Abbasov
Mir Heydər Mir Həmid oğlu Süleymanov
Mahir Tahir oğlu Zeynalov
Samir Mehman oğlu Alıyev
Mürsəl Hacı oğlu Söhbətov
Hüseyn Oruc oğlu Mirzəyev
Süleyman Salman oğlu Kərimov
Ramiz Xudam oğlu Ağayev
Şahin Mirislam oğlu Abbasov
Nəhmətulla Qədəmulla oğlu Manafov
Murad İqbal oğlu Ağazadə
Cavid Əlövsət oğlu Talıbov
Elsevən Yediyar oğlu Vəliyev
Vüsal İlqar oğlu Rzayev
Fuad Sabir oğlu Əzizov
Şamxal Bahadur oğlu Mehdiyev
Mustafa Musa oğlu Əlişov
Nizami Bayram oğlu Bayramov
Xaqan Şadulla oğlu Xanışov
Seymur Rafiq oğlu Hacıyev
Amil Bakir oğlu Məmmədov
Məhəmməd Məhəmmədhənifə oğlu Kərimov
Əkbər Şadulla oğlu Xanışov
Elməddin Zaman oğlu Qocayev
Xanhüseyn Əfsər oğlu Əbilov
Nazim Aydın oğlu Quliyev
Sahib Salman oğlu Şərifov
Baxtiyar Nazim oğlu Qarayev
Kamran İsa oğlu İsazadə
Vüsal Rasim oğlu İsmayılov
Murad Mahir oğlu Mirzəyev
Nail Elşad oğlu Rüstəmov
Hüseyn Fətulla oğlu Əsədullayev
Fərid Zöhrab oğlu Vəliyev
Rəşad Bayram oğlu Şükürov
Abduləli Mustafa oğlu Hümmətov
Rəvan Zahir oğlu Qaniyev
Fazil Mehdi oğlu Məmmədov
Razi Mirkərəm oğlu Səlimov
Şəhriyar Malik oğlu Əvəzli
Rasim Qənimət oğlu Behbudov
Kamil Akir oğlu Xatınov
Oqtay Bayram oğlu Cəfərov
İbrahim Rafail oğlu Həsənov
Surət İbadulla oğlu Zeynallı
Elşan Arif oğlu İbrahimov
İsmayıl Yusib oğlu Yusibov
Rəşid Möhübbət oğlu Xəlilzadə
Qəzənfər Allahverdi oğlu Tanrverdiyev
Məbud Əhməd oğlu Qasımov
Rəhman Mehman oğlu Əlifov
Tapdıq Tehran oğlu Rufullayev
İsmayıl Məhəmməd oğlu Tehmurov
İsmayıl Məhəmməd oğlu İsmayılov
Dəyanət Əlövsət oğlu Cəfərov
Adil Hüseyn oğlu Məhyəddinov
Qaçay Nizami oğlu Ağayev
Mübariz Sədyar oğlu Ağakişiyev
Yalçın Mikayıl oğlu Həsənov
Zamin Şahmar oğlu Balayev
Elyas Rəşid oğlu Ələkbərov
Fəxrəddin İsmayıl oğlu Əliyev
Rəcəb Cavad oğlu Məlikov
Yaşar Səlim oğlu Tağıyev
Elvin Mustafa oğlu Hümmətov
Vüqar Məhəmməd oğlu Teymurov
Ziyafət Mayıl oğlu Hüseynov
Məzahir Firudin oğlu Nəbiyev
İbrahim Musa oğlu Kazımov
Amil Abdulıəli oğlu Abdurəhimov
Elməddin Elşad oğlu Rüstəmov
Kamandar Muxran oğlu Nağıyev
Sahib Ramiz oğlu Mahmudov
Rövşən Qoca oğlu Məmmədov
Fuad Mirzəvəli oğlu Əliyev
Şamil Şəmsəddin oğlu Rəşidov
Əlağa Murtuza oğlu Həsənov
Heydar Ziyafət oğlu Hüseynzadə
Kamran Qənimət oğlu Osmanov
Allahverdi Əzim oğlu Əzimov
Səyahət Feyruz oğlu Quliyev
Emin Mahir oğlu Məmmədov
Teymur Cahid oğlu Abbasov
Asif Yusif oğlu İbrahimov
Nazim Niyazi oğlu Əsgərov
Ceyhun Şəmşəddin oğlu Tofiqzadə
Elkin Mehman oğlu Mahmudov
Əkrəm Süleyman oğlu Hüseynov
Rövşən Rəşid oğlu Qocayev
Xanalı Xanəhməd oğlu Kərimov
Sahib Ağasəməd oğlu Novruzov
Əkrəm Əziz oğlu İsmayılov
Qabil Meydanəli oğlu Əliyev
Cəmil Famil oğlu Əliyev
Rəvan Mehman oğlu İsmayılov
Röyal Yədullah oğlu İbadov
Salman Vəlyəddin oğlu Şərifov
Mərhəmət Xamis oğlu Şeydayev

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*07.02.2020-ci il*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 21/128**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 fevral 2020-ci il tarixli 54 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 117 saylı Oğuz - Qəbələ seçki dairəsi üzrə namizəd İsmayılova Ləman Aləşrəf qızı 5 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçkiqabağı təşviqat mərhələsində baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 2 fevral 2020-ci il tarixli 17/35 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd L.A.İsmayılova müraciətində iddia etmişdir ki, seçkiqabağı təşviqat dövründə 117 saylı Oğuz - Qəbələ seçki dairəsi üzrə qeydə alınmış digər namizəd Naxçıvanlı Aqiyə Həbib qızı qanunvericiliyin tələblərini pozaraq Sincan kəndinin seçicilərindən birinin təhsil haqqını ödəmiş, bu barədə məlumatı isə Yeni Azərbaycan Partiyası (YAP) Oğuz rayon təşkilatının Gənclər Birliyi yaymışdır. Bundan başqa o, bildirmişdir ki, deputatlığa namizəd A.H.Naxçıvanlının seçicilərlə görüşündə Oğuz Rayon İcra Hakimiyyətinin əməkdaşları iştirak etmişlər.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd L.A.İsmayılova 117 saylı Oğuz - Qəbələ seçki dairəsi dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət hərtərəfli araşdırılmış, 2 fevral 2020-ci il tarixli 17/35 saylı qərar ilə şikayət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, ərizəçi təşviqatı ilə əlaqədar olaraq iclasda iştirak edə bilməyəcəyini bildirmişdir.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, Oğuz rayonunun Sincan kəndində deputatlığa namizəd A.H.Naxçıvanlı 2020-ci il yanvarın 28-də seçicilərlə görüşü zamanı Sincan kənd sakini, Qarabağ müharibəsi əlili, ağır onkoloji xəstəlikdən əziyyət çəkən, məhdud imkanlara malik olan Hacıyev Bəhram Elman oğlunun övladının təhsil haqqının yarısının ödənilməsi üçün ona köməklik göstərilməsini xahiş etmişdir. YAP Oğuz rayon Gənclər Təşkilatının sədri, A.H.Naxçıvanlının vəkili Elşən Alcansoy təşkilatın facebook səhifəsində bu məlumatı paylaşmışdır.

Araşdırma prosesində vətəndaş B.E.Hacıyev tərəfindən verilmiş izahatda göstərilir ki, o, Qarabağ müharibəsi veteranıdır, onkoloji xəstəlikdən əziyyət çəkir, universitet tələbəsi olan iki övladının təhsil xərclərini ödəyə bilmir. Bu səbəbdən o, A.H.Naxçıvanlıdan kömək istəmiş, lakin ona heç bir köməklik göstərilməmişdir.

Müəyyən edilmişdir ki, namizəd A.H.Naxçıvanlı bu məlumatı facebook səhifəsində yaydığına görə, vəkili E.Alcansoya öz iradını bildirmiş və bununla əlaqədar YAP Oğuz rayon təşkilatının sədri tərəfindən ona xəbərdarlıq edilmişdir.

Oğuz Rayon İcra Hakimiyyətinin şöbə müdiri Saleh Məhərrəmovun seçkiqabağı təşviqat tədbirlərində iştirakı ilə bağlı qeyd etmək lazımdır ki, YAP Oğuz rayon təşkilatının sədri olan Saleh Məhərrəmov eyni zamanda A.H.Naxçıvanlının vəkilidir və o, hazırda işlədiyi vəzifədən məzuniyyətə çıxmışdır, uzun müddət təhsil sahəsində işləmiş digər vəkil Emin Əzimli isə hazırda pensiyadadır.

Bundan əlavə, müraciətdə göstərilən Oğuz Rayon İcra Hakimiyyətinin digər əməkdaşları E.Əhmədovun, F.Əlibabayevin, O.Rəsulovun, A.Allahverdiyevin (müraciətdə Bəhram müəllim kimi göstərilən şəxs), V.Cəfərovun, M.Həmidovun, Ə.Əlibabayevin, X.Babayevin, S.Camıyevin Oğuz rayonu Qarabaldır kəndindəki görüşdə, A.Məmmədovun Bayan kəndindəki görüşdə iştirakları ilə bağlı qeyd olunan qanun pozuntuları da araşdırma əsasında öz təsdiqini tapmamışdır. Belə ki, yuxarıda qeyd olunan şəxslərdən E.Əhmədov, F.Əlibabayev, O.Rəsulov, A.Allahverdiyev namizəd A.H.Naxçıvanlının vəkilləridir və seçki dövründə iş yerlərindən məzuniyyətə çıxmışlar. V.A.Cəfərov və X.F.Babayev 117 saylı Oğuz - Qəbələ seçki dairəsi dairə seçki komissiyasının 24 yanvar 2020-ci il tarixli, 11/23 saylı qərarı ilə 22 saylı seçki məntəqəsinə müşahidəçi təyin edilmiş və müvafiq lövhəciklə təmin olunmuşlar.

Müəyyən edilmişdir ki, müraciətdə adları qeyd olunan M.Həmidov, Məşğulluq Mərkəzinin direktoru A.Məmmədov, Kərimli kənd tam orta məktəbinin direktoru S.Camıyev, Kərimli kənd bələdiyyəsinin işçisi Ə.Əlibabayev namizəd A.H.Naxçıvanlının Kərimli kəndində seçicilərlə keçirdiyi görüşdə seçici kimi iştirak etmişlər.

Araşdırma ilə qeydə alınmış namizəd A.H.Naxçıvanlı tərəfindən seçkiqabağı təşviqatın aparılması zamanı qanun pozuntuları müəyyən edilmədiyindən şikayət təmin olunmamalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 117 saylı Oğuz - Qəbələ seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılova Ləman Aləşrəf qızının 5 fevral 2020-ci il tarixli 54 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 2 fevral 2020-ci il tarixli 17/35 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*07.02.2020-ci il*

# Dövlət Əmək Müfəttişliyi Xidməti gözlənilən güclü küləklə bağlı işəgötürənlərə müraciət edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ölkə ərazisində fevralın 7-dən 11-dək gözlənilən güclü külək ilə əlaqədar işəgötürənlərə müraciət edərək həmin günlərdə açıq havada işləyən işçilərin həyat və sağlamlığının qorunması üçün qanunvericiliyin tələblərinə əsasən müvafiq tədbirlərin görülməli olduğunu bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, xidmət işəgötürənlərin diqqətinə çatdırır ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə əsasən, aşağı temperatur və şiddətli külək şəraitində açıq havada, habelə ilin soyuq vaxtlarında qızdırılmayan qapalı binalarda işləyərkən işçilərə qızınmaq üçün fasilələr verilməli və ya iş dayandırılmalıdır.

Məcəlləyə 2-ci əlavəyə əsasən, küləyin gücü 6 bal və daha artıq olduqda, quruda kranlarla görülən bütün növ işlər, tikinti işləri görülərkən küləyin gücü 2 baldan artıq olduqda kranlar qurulması üzrə quraşdırma, 3 baldan artıq olduqda qaldırıcıların quraşdırılması və sökülməsi, daşınan taxta-şalbanın yerinin dəyişdirilməsi işləri, 6 baldan artıq olduqda taxta-şalban işi, habelə taxta-şalbanın sökülməsi işləri dayandırılmalıdır.

Dənizdə işləyərkən küləyin gücü 3 baldan çox olduqda qaynaq tikişinin şaquli və tavan vəziyyətində qoyulduğu bütün növ qaynaq, 4 baldan çox olduqda ayrı-ayrı özüllərdə kran gəmiləri vasitəsilə görülən tikinti-quraşdırma və sökmə, daimi dəniz özülləri və estakadayanı meydançaları yanındakı buxtalarda barjlara, kran gəmilərinə yükvurma və yükboşaltma işlərinin, qaynaq tikişi aşağı vəziyyətdə qoyulduğu bütün növ qaynaq işlərinin, estakada tikən kranla quraşdırma və dəniz neft-mədən qurğularının sökülməsi işlərinin dayandırılması təmin edilməlidir.

Dənizdə işləyərkən küləyin gücü 5 baldan artıq olduqda isə ayrı-ayrı özüllərdə üzən vasitələr, qurğular olmadan tikinti-quraşdırma və sökmə, kopyor vasitəsilə dayaqlar vurulması, daimi dəniz özüllərində buruqların quraşdırılması, sökülməsi və dorların qaldırılması (endirilməsi), traversin sürgü qollarının, mancanaq dəzgahının asma kanatının təmiri və dəyişdirilməsi, buruqda və ya dorda diyirçəklərin, kran-blokun dəyişdirilməsi, tali kanatının təchizatı, dərinlik ölçmələri və quyuların debitinin ölçülməsi, estakada meydançalarında quyuların cari və əsaslı təmiri üçün səyyar aqreqatların dorlarının qaldırılması işləri dayandırılmalıdır.

Küləyin gücü 6 baldan artıq olarsa, daimi dəniz özüllərində istismar edilən quyularda işləri, daimi dəniz özüllərində estakadayanı meydançalarda quyuların əsaslı və cari yeraltı təmir işlərini, 8 baldan çoxdursa, qazma işləri aparılan quyularda alətlərin quyulardan qaldırılması ilə əlaqədar bütün işləri, özülün və ya estakadayanı meydançanın döşəməsi üstündəki və altındakı işləri dayandırmaq tələb olunur.

Əgər küləyin gücü 10 baldan artıq olarsa, quyunun yuyulması işlərindən başqa buruqda bütün işlərin dayandırılması təmin edilməlidir.

İşlərin dayandırılması zamanı işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı ilə fasilənin sayı, müddəti müəyyənləşdirilməli, iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməli və bu fasilələr zamanı da əməkhaqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri səbəbindən baş verməyən boşdayanma kimi və tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməsi təmin edilməlidir.

# Xaçmazda ilk Kiçik və Orta Biznes Evi istifadəyə verilib

*Əvvəli 1-ci səh.*



Təqdimatla çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov KOB Evinin biznes subyektləri üçün operativlik, nəzakətlilik və rahatlıq prinsiplərinə uyğun, müasir innovasiyalara əsaslanan dövlət-biznes (G2B) və biznes-biznes (B2B) xidmətlərinin göstərildiyi vahid məkan olduğunu diqqətə çatdırıb.

Məlumat verilib ki, KOB Evində sahibkarlara startap layihələrinə başlanılması, biznes və marketinq planlarının hazırlanması, biznes biliklərin artırılması, sahibkarlıq fəaliyyətinin qeydiyyatı, lisenziyaların alınması, maliyyə resurslarına çıxış, mühasibat uçotunun aparılması, idxal-ixrac rəsmiləşdirilməsi, logistika və infrastruktur şəbəkələrinə, daxili və xarici bazarlara çıxış, ixracın təşviqi və digər istiqamətlərdə dəstək göstəriləcək. Ümumilikdə KOB Evində ilkin mərhələdə 200-ə yaxın G2B və 100-dək B2B xidmətlər təqdim olunacaq. Burada xidməti ofislər, görüş və konfrans zalları da fəaliyyət göstərəcək.

KOB İnkişaf Mərkəzi isə mikro, kiçik və orta sahibkarların biznes ideyalarının reallaşmasını çoxsaylı məsləhət və təlim xidmətləri ilə dəstəkləyəcəkdir.



Tədbirdə çıxış edən sahibkarlar KOB Evinin onların fəaliyyətində rolunu vurğulayaraq özəl bölmənin inkişafı üçün yaradılan əlverişli şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarların iştirakı ilə keçirilən açılış mərasimində KOB Evinin və KOBİA-nın fəaliyyətinə dair filmlər nümayiş olunub.

Həmin gün Xaçmaz KOB Evində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Müşahidə Şurasının iclası keçirilib.

Müşahidə Şurasının sədri, İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərliyi ilə keçirilmiş iclasda Şuranın üzvləri - vergilər, əmək və əhalinin sosial müdafiəsi, kənd təsərrüfatı nazirlərinin müavinləri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti iştirak ediblər.

İclasda Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin 2019-cu ildəki fəaliyyəti və 2020-ci ildə nəzərdə tutulan tədbirlər barədə məlumat verilib, müzakirələr aparılıb.

***AZƏRTAC***

# Böyük sosial paketin yeni dalğası

*Əvvəli 1-ci səh.*

Artımın həyata keçirilməsi məqsədilə illik təxminən 560 milyon, aylıq 47 milyon manat əlavə vəsaitin xərclənməsi nəzərdə tutulur.

Bu artımdan sonra orta aylıq pensiya məbləği 262 manatdan 300 manatadək yüksəlir. Artım 2020-ci ilin 1 yanvar tarixindən tətbiq olunacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək. Misal üçün, şəxsin pensiyası 400 manatdırsa, bu məbləğ yanvarın 1-dən 16,6 faiz, yəni 66,4 manat artırılmaqla 466,4 manata çatdırılacaq, yanvar ayının 66,4 manat artımı da fevral ayında veriləcək, yəni şəxs fevral ayında yanvar ayının artımı ilə birgə (466,4+66,4) 532,8 manat pensiya alacaq.

Bununla bərabər, Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri də yanvarın 1-dən indeksləşdirilməklə 2,6 faiz artırılır.

Bütün bunlar ölkə vətəndaşlarının güzəranının yaxşılaşdırılması üçün atılan növbəti addımlardır və əhalinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin miqyasının getdikcə genişləndirilməsini göstərir. Şübhəsiz ki, bu islahatların başında Azərbaycan vətəndaşının maraqları, həmçinin sosial ədalət və humanizm prinsipləri durur.

Digər sahələrdə də həyata keçirilən islahatlar, əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün göstərilən səylər onu deməyə əsas verir ki, ölkəmiz daha da inkişaf edəcək və yoxsulluq səviyyəsi daha da azalacaq.

Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası isə gündən-günə genişlənir. Sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Dövlət Statistika Komitəsində ötənilki fəaliyyət və cari ildə qarşıda duran vəzifələr müzakirə edilib





Fevralın 7-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, şəhər və rayon statistika idarələri rəhbərlərinin iştirakı ilə statistika orqanlarının ötən ildəki fəaliyyəti və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunan geniş kollegiya iclası keçirilib.

Komitədən AZƏRTAC-a bildirilib ki, iclasda məruzə ilə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən illərdə uğurla reallaşdırılan sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamızın dünyanın sürətli inkişaf yolunda irəliləyən, qlobal maliyyə, geosiyasi və iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərindən biri kimi tanındığını diqqətə çatdırıb. Qeyd edib ki, artıq keçid dövrünü geridə qoyan ölkəmizin hərtərəfli inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub ki, bu mərhələdə də əsas məqsədlərdən biri uzunmüddətli və dinamik sosial-iqtisadi inkişafın dayanıqlılığının təmin edilməsidir. Bildirib ki, ölkə başçısının həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, 2018-ci illə müqayisədə 2019-cu ildə iqtisadi artım 2,2 faiz təşkil edib, o cümlədən qeyri-neft-qaz sektoru 3,5 faiz, kənd təsərrüfatı 7,2 faiz, qeyri-neft-qaz sənaye məhsulu 14,3 faiz, əhalinin nominal gəlirləri 7,4 faiz artıb. Ümumilikdə son 16 ildə ölkəmizdə ümumi daxili məhsul istehsalı 3,4 dəfə, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 2,9 dəfə, sənaye məhsulu istehsalı 2,7 dəfə, o cümlədən qeyri-neft-qaz sənayesi üzrə 2,7 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 2,9 dəfə, yük daşınması 2,1 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 14,2 dəfə, dövlət büdcəsinin gəlirləri 20 dəfə, xərcləri 19,8 dəfə, əhalinin nominal gəlirləri 9,9 dəfə, minimum əməkhaqqı 27,8 dəfə, əmək pensiyasının minimum məbləği 10 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, o cümlədən idxal 5,2 dəfə, ixrac 7,6 dəfə, qeyri-neft-qaz məhsullarının ixracı 5,2 dəfə artıb, işsizlik səviyyəsi 9,2 faizdən 4,8 faizə, yoxsulluq səviyyəsi 44,7 faizdən 4,8 faizə enib, bu illər ərzində 2 milyon 369 min iş yeri yaradılıb.

Komitə sədri Prezident İlham Əliyevin rəsmi statistikanın beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq həyata keçirilən islahatlar və qurumun 2019-cu ildəki fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritələrində qarşıya qoyulmuş hədəf və prioritetlərə çatma vəziyyətinin qiymətləndirilməsi üçün informasiya təminatının təkmilləşdirilməsi, inzibati məlumat mənbələrindən istifadənin genişləndirilməsi və milli statistika sistemində aparılan islahatların daha da sürətləndirilməsi məqsədilə zəruri tədbirlər görülür, "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" uğurla icra olunur. Statistik infrastrukturun yenilənməsi, statistik istehsal prosesinin səmərəliliyinin yüksəldilməsi, milli və beynəlxalq tələblər nəzərə alınmaqla hesabat formalarının və metodoloji tövsiyələrin təkmilləşdirilməsi, habelə statistik vahidlərlə və istifadəçilərlə işlərin təşkili sahəsində mühüm tədbirlər həyata keçirilib.

Qeyd olunub ki, 2019-cu ildə Dövlət Statistika Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri də metodoloji bazanın möhkəmləndirilməsi olmuş, BMT, Avrostat, Beynəlxalq Valyuta Fondu (BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı (BƏT) və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmaqla 53 metodoloji material hazırlanıb. Onlardan 35-i rəsmi statistika hesabatı formalarının tərtib olunmasına, 18-i isə statistik müayinələrin keçirilməsinə, müəllim-şagird nisbətinə dair ölkə üzrə göstəricilərin müəyyən edilməsinə dair metodologiyaya, əhalinin müxtəlif təbəqələrinin ərzağa əlyetərlik səviyyəsini xarakterizə edən və mikro, kiçik və orta sahibkarlıq statistikası üzrə göstəricilər sistemlərinə aid olub.

Bildirilib ki, hesabat dövründə Dövlət Statistika Komitəsinin fəaliyyətinin əsas istiqamətlərindən biri də beynəlxalq təşkilatlarla məlumat mübadiləsi təşkil edib ki, ötən ildə BMT və onun regional təşkilatları, Avropa İttifaqı, BVF, BƏT, UNİSEF, UNESKO, Dünya Bankı, Asiya İnkişaf Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Avrostat, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatlarla, həmçinin dünya ölkələrinin milli statistika xidmətləri ilə fəal əməkdaşlıq davam etdirilib. Milli metodologiyaların beynəlxalq standartlara uyğunlaşdırılması, təcrübə mübadiləsinin aparılması, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqi, beynəlxalq məlumat portallarında Azərbaycana aid statistik məlumatların yoxlanılması, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması istiqamətində beynəlxalq təşkilatlarla və onların Azərbaycandakı nümayəndəlikləri ilə işlərin təşkili əsas vəzifələrdən biri olub. "Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi" və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında "Azərbaycan Respublikasında Statistik Kadr Potensialının Gücləndirilməsi" layihələri yekunlaşıb. Bundan başqa, Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi və Niderland Mərkəzi Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma memorandumları imzalanıb.

Qeyd edilib ki, ölkə və onun regionları üzrə sosial-iqtisadi vəziyyəti əks etdirən icmal statistik və təhlili məlumatlarla idarəetmə orqanlarının və digər istifadəçilərin təmin edilməsi məqsədilə aparatın şöbələri və yerli statistika orqanları tərəfindən il ərzində ümumilikdə 2080 təhlili məruzə və 33 statistik məcmuə hazırlanıb. Komitənin internet səhifəsi ("www.stat.gov.az") istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilib və yenilənib, respondentlərin yerli statistika orqanlarına gəlmədən hesabat məlumatlarını elektron formada təqdim etmələri üçün zəruri tədbirlər həyata keçirilib. Nəticədə rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu 95 faizi ötüb, statistik hesabatları elektron formada internet vasitəsilə təqdim etmək üçün il ərzində 2,9 milyon müraciət daxil olub, bununla da vətəndaş-məmur təmaslarının səviyyəsi minimuma endirilib, eyni zamanda, statistik məlumatların işlənməsi və təhlili imkanları yüksəlib.

Daha sonra 2019-cu ildə də statistika sistemində aparılmış sistemli islahatlar, hesabat intizamı, metodologiyaların hazırlanması, statistik vahidlər və istifadəçilərlə işlərin təşkili, inzibati məlumatlardan istifadə, statistika məlumatlarının toplanmasında, emalında və yayılmasında informasiya texnologiyalarının tətbiqi, məlumatların keyfiyyətinin artırılması, DİM və Strateji Yol xəritələrində nəzərdə tutulmuş tapşırıqların icrası istiqamətində statistika orqanları tərəfindən görülmüş əsas işlər barədə hesabat müzakirə edilib, əldə olunan nailiyyətlərlə, həmçinin yol verilmiş nöqsan və çatışmazlıqlarla bağlı Dövlət Statistika Komitəsi Aparatının şöbə müdirlərinin və yerli statistika orqanlarının rəhbərlərinin çıxışları dinlənilib.

Sonda kollegiya iclasına yekun vuran Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov qarşıda duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün qurumun müvafiq strukturlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

# “Azərenerji” ASC enerji təminatında dünyada liderlər sırasındadır

## Bu sistemin dayanıqlılığının təminatı stansiyalardan istifadədə əmsal artımının göstəricisidir



**Kamal ABDULLAYEV,**
*Əməkdar elm xadimi,
texnika elmləri doktoru,
professor,
“Şöhrət” ordeni laureatı,
Azərbaycan Respublikası
Prezidentinin fərdi
təqaüdçüsü,
Beynəlxalq və Gürcüstan Milli
Energetika Akademiyalarının
akademiki, M.Lomonosov
adına medalın və ABŞ-ın
“Elmin açarı” laureatı*

**Energetika sahəsi praktiki olaraq bütün sahələrin inkişafını təmin edən, respublikamızın yüksəlişinin ana xəttini təşkil etməklə dövlətimizin ən vacib strateji sahəsidir. Ona görə də dahi tarixi şəxsiyyət olan Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə energetika sahəsinin dövlətimizin inkişafında əvəzsiz rolunu qiymətləndirərək bu sahəyə çox diqqət və qayğı göstərmişdir. Buna görə qısa müddətdə çox yüksək sürətlə energetika sahəsinin inkişafında böyük nailiyyətlər əldə edilmiş, praktiki olaraq bütün elektrik stansiyalarında köhnə avadanlıqlar müasir avadanlıqlarla əvəz edilmiş və yeni elektrik stansiyaları tikilərək enerji sistemin qoyuluş gücü dəfələrlə artırılmışdır.**





Hal-hazırda Ulu Öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyev energetika sahəsinə böyük diqqət göstərir. Bunun nəticəsində müstəqil dövlətimiz digər sahələrdə olduğu kimi, enerji təminatı sahəsində də dünyada qabaqcıl sıralardadır.

Respublikamızın energetikləri fəxrlə qeyd edirlər ki, hazırda cənab Prezident İlham Əliyevin rəhbərliyi altında energetika sahəsi davamlı inkişafdadır və elektrik stansiyalarının qoyuluş gücü imkan verir ki, hasil olunan elektrik enerjisinin müəyyən hissəsini xarici dövlətlərə ixrac edək. Müstəqil dövlətimiz üçün bu böyük nailiyyətdir.

Ölkəmizdə bütün sahələrdə yol xəritəsi - inkişaf planları mövcuddur və bu sahələrin yüksəlişinin təmin edilməsində energetikanın xüsusi rolu var. “Azərenerji” sisteminin dayanıqlı işini təşkil etmək, ölkəni tələb olunan miqdarda elektrik enerjisi ilə təmin etmək dövlətimizin inkişafının əsas məqsədlərindən biridir. Hazırda sivilizasiya elə səviyyəyə çatıb ki, həyatı energetikasız təsəvvür etmək mümkün deyildir.







“Azərenerji” sistemində son illərdə mövcud olan vəziyyət respublikamızın inkişaf planlarına uyğun artmaqda olan enerji tələbatını, həmçinin enerji sistemin inkişafını təmin etmək üçün yeni rəhbərlik qarşısında geniş miqyaslı yenidənqurma və əsaslı tikinti işlərinin reallaşdırılması kimi tələblər qoydu. Bu tələblər çox çətin olsa da, məsuliyyətli və şərəflidir. Çünki müstəqil dövlətimizin daha da güclü olmasını təmin etmək vacibdir və cəsarətlə deyə bilərəm ki, bu işlər çox böyük müvəffəqiyyətlə həyata keçirilir.

Respublika enerji sistemində qoyuluş gücünün kifayət qədər olmasına baxmayaraq, kadrların məsuliyyətsizliyi üzündən bu sahədə dayanıqlıq təmin edilməmiş və qoyuluş gücündən istifadə əmsalı kiçik olmuşdur. Ona görə də praktiki olaraq istismar müddətini başa vurmuş “Azərbaycan” İstilik Elektrik Stansiyasında 2018-ci ilin iyul ayında baş vermiş qəza enerji sistemin çökməsinə səbəb olduğundan ölkə Prezidenti cənab İlham Əliyevin göstərişi ilə ən müasir səviyyədə yenidən qurularaq bərpa edilir. Cənubi Qafqazda ən böyük qoyuluş gücünə malik, hər biri ayrılıqda elektrik stansiyası statusunda olan 8 enerji bloklu “Azərbaycan” İstilik Elektrik Stansiyasında bütün istiqamətlər üzrə tikinti, yenidənqurma, bərpa və abadlaşdırma işləri aparılır. Qeyd edək ki, “Azərbaycan” İES-in qoyuluş gücü 2,400 meqavat (MVt) olduğu halda, ötən ilin payızında “Reabilitasiya Proqramı”na başlamazdan əvvəl imkan gücü 1680 MVt təşkil edirdi. Ən əsası isə stansiyanın dayanıqlılığı, etibarlılığı, təhlükəsizliyi və səmərəliliyi aşağı səviyyədə idi.

Belə ki, stansiyadakı 8 generatorun hər birində təsirlənmə sistemləri, soyuducuları köhnəlmiş və istismara tamamilə yararsız hala düşmüşdü. Qazan qurğularında küləkdən mühafizə lövhələri dağılmış, əksər qazan avadanlıqları aşınmış və sıradan çıxmışdı. Regenerativ hava qızdırıcıları, qaz yolları, kompensatorlar, şiber və kaloriferlər uzun müddət istismar nəticəsində yararsız vəziyyətə düşmüş və qazanların istismarı yolverilməz idi. Tüstü boruları və konstruksiyalar da aşınmaya məruz qalmış və yararsız vəziyyətə düşmüşdü. Blokların idarəetmə sistemini qidalandıran Fasiləsiz Qida Mənbələri (UPS) istismara yararsız vəziyyətdə olduğu üçün yenisi ilə dəyişdirilməli idi. Maşın zalının konstruksiyası, dam örtüyü və döşəməsi dağılmışdı. Stansiyadan atılan yağlı çirklənmiş sular, kanalizasiya və digər çirkab tullantı sularını təmizləyən qurğu işləmədiyindən texnoloji prosesin pozulmasına səbəb olmuşdur.

Azot və oksigen qurğuları, reagent və yağ təsərrüfatları istismar müddətini 2 dəfədən çox başa vurduğundan keyfiyyət və təhlükəsizlik baxımından tələblərə cavab vermirdi. Hidrogen qurğusu uzunmüddətli istismar edildiyindən təhlükə yaradırdı. Enerji bloklarında istismar müddəti başa çatmış yağa hopdurulmuş kağız izolyasiyalı güc kabelləri yanğın təhlükəsi yaradırdı. Bloklarda və köməkçi avadanlıqlarda yanğınsöndürmə sistemləri yox idi.

Yuxarı Qarabağ kanalının stansiya ərazisindən keçən çıxış su kanalı hissəsinin yamacları dağılmışdı. 330 kV və 500 kV-luq yarımstansiyaların avadanlıqları və mühafizə sistemləri istismar müddətini başa vurmuşdu və gələcək istismarı təhlükəli idi. Stansiyanın bloklarını və yarımstansiyaları vahid mərkəzdən idarə etməyə imkan verən müasir idarəetmə mərkəzi yox idi. Stansiyanın laboratoriya və sexləri üçün müvafiq iş şəraiti və avadanlıqlar mövcud deyildi. Ölkənin ən böyük stansiyası olan “Azərbaycan” İES-in bu cür vəziyyəti bütün enerji sistemi üçün təhlükə mənbəyi olmaqla sistem qəzasının baş verməsi ehtimalını yüksək səviyyəyə çatdırmışdı.

İlk növbədə stansiyanın etibarlı istismarını, daha doğrusu, normal fəaliyyətini təmin etmək məqsədilə cənab Prezidentin göstərişinə əsasən “Azərenerji” ASC-nin rəhbərliyi tərəfindən təcili görüləcək işlərin həcmi müəyyən edildi və konkret olaraq bir il ərzində reallaşdırılacaq işlərin yerinə yetirilməsinə başlanıldı.

Artıq 8 enerji blokunun 5-də yenidənqurma işləri aparılıb, 3 blokda isə işlər davam edir və yaxın aylarda yekunlaşması planlaşdırılır. 500 kV-luq yarımstansiya praktiki olaraq tamamilə yenidən qurulub. Avadanlıqlar, ehtiyat hissələri, transformatorlar dəyişdirilib. Ötən il qəza baş verən cərəyan transformatorunun yerləşdiyi 330 kV-luq yarımstansiyada işlər yekunlaşmaq üzrədir. Yarımstansiyada olan 63 ədəd cərəyan transformatoru da daxil olmaqla digər avadanlıqlar dəyişdirilib.

Müxtəlif texnoloji yeraltı və yerüstü kommunikasiya xətlərinin yenidən qurulması üzrə görülən işlər başa çatmaq üzrədir. 300 kV-luq yarımstansiya üçün yeni idarəetmə binası tikilib. Hazırda 8 enerji bloku, 500 və 330 kV-luq yarımstansiyalar, ötürmə xətləri, sexlərin avtomatik idarəetməsi üçün yeni SCADA dispetçer və əks-qəza avtomatikası sistemi qurulur. Yeni avtomatik və çevik yanğınsöndürmə sistemi yaradılıb.

Su soyutma üçün 1 km məsafədə Qarabağ kanalının yamac və dib hissəsində beton qat salınıb. Stansiyanın azot-oksigen, hava kompressor sahələrində, yağ və reagent təsərrüfatlarında, kimya sexində işlər başa çatıb, stansiya üçün tikilən yeni inzibati bina və idarəetmə mərkəzində işlər yekunlaşıb. Stansiyanın 6 mərtəbəli mühəndis korpusu tamamilə yenidən qurulub. Stansiyanın perimetr boyunca 8 km məsafədə elektron müşahidə sistemi ilə hasarlanması prosesi başa çatıb.

Qarabağ kanalı üzərində yeni körpü tikilib, yol çəkilərək əhalinin ixtiyarına verilib. “Azərbaycan” İES-də yenidənqurma işlərinin böyük hissəsi başa çatıb və qalan işlər bir neçə aya tamamilə yekunlaşacaqdır. Görülmüş və görüləcək işlərin nəticəsi olaraq stansiyada 400 MVt “itirilmiş” güc bərpa olunacaq, dayanıqlılıq, etibarlılıq, təhlükəsizlik və səmərəlilik təmin ediləcəkdir. Ən əsası isə istismar müddətini başa vuran stansiyanın ömrü ən azı 20 il uzadılacaqdır.

Mən yaxın vaxtlarda dəfələrlə bu stansiyada olmuşam, həqiqətən stansiya yenidən tikilir və abadlaşdırılır. Hesab edirəm ki, qısa bir müddətdə stansiyada çox böyük həcmdə işlər yerinə yetirilir, “itirilmiş” güc tam bərpa edilir.

Enerji sistemin dayanıqlı, iqtisadi cəhətdən əlverişli və etibarlı iş rejiminin təşkilində savadlı kadrlarla təminat məsələsi çox önəmlidir. Ona görə də “Azərenerji” ASC-nin yeni rəhbərliyi enerji sistemin bütün müəssisələrində bu məsələni dərindən araşdırmaq məqsədilə təcrübəli və peşəkar mütəxəssislərdən ibarət xüsusi imtahan komissiyaları təşkil edərək, tutduğu vəzifəsindən asılı olaraq istismar və təmir ilə məşğul olan hər bir işçi ilə görüşüb sorğu aparmışdılar. Məlum olmuşdur ki, enerji sistemdə bu sahədə vəziyyət çox acınacaqlıdır və bunun müxtəlif səbəbləri vardır.

Zənnimcə, bu vəziyyətin yaranmasında əsas səbəb sistemin və müəssisə rəhbərlərinin məsələyə biganə yanaşması, daha doğrusu, bu məsələ ilə məşğul olmamasıdır. İkinci səbəb yüksək səviyyəli və perspektivli kadrların aylıq məvaciblərinin aşağı olması ilə əlaqədar yaranmış “kadr axını”dır. Üçüncü səbəb isə “Azərenerji” ASC-nin bilavasitə istismar və nəzarətlə əlaqədar şöbələrinin uğursuz fəaliyyət göstərməsidir.

Ona görə də hazırda “Azərenerji” ASC-nin yeni rəhbərliyi qeyd etdiyim komissiyanın hesabatının nəticələrinə əsasən yüksəkixtisaslı kadr təminatını yaxşılaşdırmaq məqsədilə çox tutarlı addımlar atmaqdadır. Əminəm ki, bu addımlar müsbət nəticə verəcəkdir. Buna misal olaraq, Elmi Tədqiqat və Layihə Axtarış Energetika İnstitutunun binasında (bina yeni rəhbərlik tərəfindən əsaslı təmir edilib) enerjisistem üçün (müxtəlif sahələr üzrə) müasir avadanlıq və stendlər quraşdırılmış, o cümlədən Azərbaycan dilində ədəbiyyatlarla təmin olunmuş müasir tədris mərkəzi yaradılır, burada ixtisasartırma kursları fəaliyyət göstərir. Eyni zamanda enerji sistemin müəssisələrində perspektivli, cavan kadrları işə cəlb etməklə iş yerlərində onlarla xüsusi məşğul olurlar.

Yeri gəlmişkən, bu sahədə müəyyən təcrübəyə malik şəxs kimi (“Azərenerji” ASC-də şöbə müdiri, AZİ-də 44 il kafedra müdiri, 20 ilə yaxın Energetika fakültəsinin dekanı və Dissertasiya Müdafiə Şurasının sədri vəzifələrində çalışmışam) respublikamızın inkişafında, o cümlədən energetika sektorunda etibarlı və səmərəli işin təşkilində təhsil müəssisələrinin müstəsna rolunu nəzərə alaraq, bu sahədə kadr hazırlığı məsələsini vacib hesab edirəm. Aydın məsələdir ki, respublikamızın təhsil müəssisələrində energetika sahəsi üzrə hazırlanan kadrların səviyyəsi bu strukturun tələblərinə cavab verməlidir.

Respublikamızda hasil olunan elektrik enerjisinin təxminən 90 faizə qədəri istilik elektrik stansiyalarında hasil edilir. Yaxın gələcəkdə bütün sahələrin inkişaf planlarının həyata keçirilməsi məqsədilə elektrik enerjisinə tələbat nəzərəçarpacaq dərəcədə artacaqdır. Eyni zamanda xarici ölkələrə elektrik enerjisinin ixracı məqsədəuyğun olduğuna görə, yeni istilik elektrik stansiyalarının tikilməsi tələb olunacaqdır.

Son zamanlar bəzi mütəxəssislər istilik energetikası dövrünün bitdiyini, alternativ enerji mənbələrinin müstəsna rolunu qeyd edirlər. Doğrudur, gələcəyimizin ümid yeri kimi alternativ enerji mənbələrini inkişaf etdirməliyik, bu sahə üzrə artıq respublikamızda son illərdə böyük miqyasda işlər aparılır və biz bu işləri dəstəkləməliyik. Bununla yanaşı, nəzərə almalıyıq ki, hələ yaxın dövrlərdə (ən azı 50 ildən çox) respublikamızda elektrik enerjisi təminatında İES-lərə əsas mənbə kimi baxılmalıdır. Ona görə də istilik energetikasına “kölgə” salmaq və ona “soyuq” yanaşmaq olmaz.

Qeyd etmək istəyirəm ki, keçən il Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ixtisasların birləşdirilməsi barədə Nazirlər Kabinetinə təklif verilmiş və bu təkliflər təsdiqini tapmışdır. Burada məqsəd zənnimcə, Avropa təhsil sisteminə uyğunlaşmaq olmuşdur. Mən bu məsələnin əleyhinə deyiləm. Ancaq ixtisasların birləşdirilməsi zamanı ilk növbədə ixtisasların spesifik uyğunluğu, strateji sahələrdə kadr hazırlığının keyfiyyətinə təsiri, respublikanın struktur amilləri nəzərə alınmalı və bu məsələlər sahələr üzrə təcrübəli mütəxəssislərlə müzakirə edilməli idi.

Məsələn, Təhsil Nazirliyinin təqdim etdiyi variantda “elektrik” və “istilik” energetikası ixtisasları birləşdirilərək “Energetika” ixtisası adlandırılıb, hər iki ixtisas üçün eyni tədris planı təklif olunub. Hesab edirəm ki, bu ixtisasları birləşdirmək düzgün deyil. Nəticədə istilik energetikası sahəsində hazırlanan kadrların bilik səviyyəsi daha da aşağı düşəcəkdir. Odur ki, Energetika Nazirliyi bu işə müdaxilə etməli, illər boyu olduğu kimi “İstilik energetikası” ixtisası ayrıca saxlanılmalıdır.

Energetika sahəsi üçün kadrlar, eyni zamanda Energetika kollecində də (əvvəlki Energetika Texnikumu) hazırlanır. Əvvəllər “Azərenerji”nin tələbi ilə texnikumda ixtisas fənlərini Azərbaycan Dövlət Neft Akademiyasının (AZİ-nin) məşhur müəllimləri tədris edirdi. Məsələn, İ.İbrahimov, F.Hüseynov, Ə.Hüseynzadə, N.Əlizadə və başqaları. Hazırda isə bakalavr pilləsini bitirən və magistr pilləsinin birinci kursunda təhsil alan tələbələr bütün ixtisas fənlərini tədris edirlər. Belə halda hansı keyfiyyətdən danışmaq olar? Hesab edirəm ki, əgər energetika sahəsində keyfiyyətli kadrların hazırlanmasından söhbət gedirsə, Energetika Nazirliyi və “Azərenerji” ASC bu sahədə tədris planlarını və proqramlarını nəzərdən keçirməlidirlər. Belə ki, bəzi tədris materialları respublikamızın elektroenergetika sahəsinin tələblərinə uyğun gəlmir. Hətta, elə mövzular tədris olunur ki, onlar nə indi, nə də gələcəkdə energetika sisteminə lazım olmayacaq.

Yuxarıda qeyd etdiyim kimi, Mingəçevir şəhərində yerləşən “Azərbaycan” İES ilə yanaşı, enerji sistemin bütün sahələrində əhəmiyyətli işlər görülmüş və görülməkdə davam edir və bu enerji sistemin dayanıqlı və faydalı işləməsini təmin edəcəkdir.

Azərbaycan enerji sistemi professor Ə.Bayramzadənin “Azərenerji”yə rəhbərliyi dövründə keçmiş ittifaqın ən qabaqcılları sırasında olmuşdur. Ona görə də, o dövrün ən görkəmli alimləri energetika sahəsində ən vacib məsələlərin, layihələrin tədqiqatı işini “Azərenerji”də həyata keçirirdi.

Yaşlı nəslin nümayəndəsi olaraq arzum budur ki, “Azərenerji” o dövrdə olduğu kimi, qabaqcıllar sırasında olsun.

---

# Azərbaycan beynəlxalq əməkdaşlığın uğurlu platformasıdır

## Bakı növbəti dəfə Rusiya-NATO danışıqlarına evsahibliyi etdi

*Əvvəli 1-ci səh.*

Görüşdə strateji sabitlik və dünyanın böhranlı bölgələrindəki vəziyyət barədə fikir mübadiləsi aparılıb. Bununla yanaşı, tərəflər arasında baş verə biləcək insidentlərin qarşısının alınması məsələsi müzakirə olunub.

Bu, son 3 ildə Bakıda NATO və Rusiya hərbi komandanları arasında keçirilən 6-cı görüşdür. Xatırladaq ki, ötən ilin noyabr ayında V.Gerasimov Bakıda NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçlə görüşmüşdü. Bir qədər əvvəl, iyul ayında isə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi V.Gerasimov Tod Volterslə danışıq aparmışdı. 2018-ci ilin aprel və dekabr ayında V.Gerasimov Bakıda NATO Müttəfiq Qüvvələrinin Avropadakı əvvəlki baş komandanı Körtis Skaparrotti ilə görüşmüşdü. Onun 2017-ci ilin fevralında ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin əvvəlki rəhbəri, general Cozef Danford və 2017-ci ilin sentyabrında NATO Hərbi Komitəsinin Ser Stüart Piiçdən əvvəlki rəhbəri, general Petr Pavel ilə də görüşlərinə evsahibliyini Bakı etmişdi.

Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev söhbət zamanı Rusiya və NATO arasındakı hərbi müzakirələrin Bakıda keçirilməsini ölkəmizə göstərilən etimad kimi dəyərləndirib: *“Çox şadam ki, NATO və Rusiya hərbi komandanları arasında görüşlərin Bakıda keçirilməsi artıq bir ənənədir. Biz görüş yeri kimi Azərbaycanı seçdiklərinə görə NATO və Rusiyaya çox minnətdarıq. Düşünürəm ki, bu, çox doğru seçimdir. Eyni zamanda bunu bizə olan etimadın, hörmətin əlaməti hesab edirik. Çünki istənilən başqa bir ölkə seçilə bilərdi. Lakin Bakının seçilməsi o deməkdir ki, bizim həqiqətən də çox güclü tərəfdaşlığımız var. Mən əminəm ki, sizin bu gün həmkarınızla keçirəcəyiniz görüş çox səmərəli olacaq, dünyada və regionumuzda sülh və sabitliyə xidmət edəcək”.*

### Azərbaycan qlobal təhlükəsizliyə dəyərli töhfələr verir

Dünyanın iki çox böyük hərbi gücünün Bakıda qlobal əhəmiyyətli məsələləri müzakirə etməsi sıradan bir hadisə deyil. Paytaxtımız artıq 3-cü ildir ki, Rusiya ilə NATO arasındakı danışıqlara evsahibliyi edir. Bu görüş üçün tərəflər ya NATO üzvü olan ölkəni, ya Rusiyanı, ya da üçüncü bir dövləti seçməli idilər. Amma söhbət bir-biri ilə hərbi-siyasi rəqabətdə olan iki tərəfdən, qlobal miqyasda maraqları olan güc mərkəzlərindən getdiyindən bu görüşlərin keçirilmə məkanının seçilməsi də böyük əhəmiyyət kəsb edir. Görünən odur ki, NATO komandanının Moskvaya, onun rusiyalı həmkarının isə hansısa Qərb ölkəsinə getməsi uyğun sayılmayıb. Deməli, bu görüş üçün üçüncü dövlətin seçilməsi zərurəti yaranıb. Belə dövlətlərin sayı kifayət qədər çox olsa da, tərəflər məhz Bakını seçiblər. Bunun də səbəbləri çoxdur.

Təbii ki, bu səbəblərdən ən birincisi Azərbaycanın yüksək qlobal nüfuzu ilə bağlıdır. Bu gün müstəqil siyasəti olan respublikamız beynəlxalq miqyaslı istənilən məsələdə mövqeyini ortaya qoyur, məhz özünün maraq və mənafelərindən çıxış edir. Respublikamız nə NATO-nun, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Amma rəsmi Bakının istər ABŞ, istər Avropa və istərsə də Rusiya ilə çox yaxşı siyasi münasibətləri var. Öz uğurlu siyasəti ilə respublikamız təkcə yerləşdiyi regionda deyil, həm də daha geniş miqyasda sabitləşdirici rol oynayır, sülhyaratma proseslərində fəal iştirak edir, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Azərbaycanın həyata keçirdiyi layihələr həm Rusiya, həm də Qərb tərəfindən daim yüksək dəstək alıb. Dünyanın ən nüfuzlu siyasi liderləri sırasında dayanan Prezident İlham Əliyevin Rusiya dövlətinin başçısı Vladimir Putinlə qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətləri var. O cümlədən ABŞ Prezidenti Donald Tramp İlham Əliyevin liderliyini yüksək qiymətləndirib. Bütün bunlar onu göstərir ki, generalların görüş yeri üçün Bakının seçilməsi Prezident İlham Əliyevə olan etimadın, eyni zamanda Azərbaycanın dünya miqyaslı nüfuzlu ölkə olmasının və ona böyük hörmətlə yanaşıldığının təzahürüdür.

### İlham Əliyevin təşəbbüsləri özünü uğurla doğruldur

Respublikamız dünyada sülhyaratma prosesinə də qoşulub, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. NATO rəhbərliyi də daim Azərbaycanın qlobal təhlükəsizliyə verdiyi töhfələri təqdir edir. Təsadüfi deyil ki, Tod Volters də Prezident İlham Əliyevlə görüşdə Azərbaycanın Əfqanıstanda “Qətiyyətli dəstək” missiyasına verdiyi töhfənin, əsgərlərimizin oradakı xidmətinin NATO tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin çoxtərəfli əməkdaşlıqla bağlı təşəbbüsləri təcrübədə özünü uğurla doğruldub. Bu baxımdan Bakının Rusiya-İran-Azərbaycan əməkdaşlıq formatının yaradılması regional əməkdaşlıqda mühüm nümunədir. İlham Əliyevin təşəbbüsləri həm də regional münaqişələrin, qarşıdurmaların, gərginliyin aradan qaldırılmasında fəal rol oynayır və respublikamız barışdırıcı missiya həyata keçirir. Misal üçün, Azərbaycan bir müddət əvvəl Rusiya və Türkiyə arasında baş vermiş siyasi gərginliyin aradan qaldırılmasında mühüm rol oynayıb.

Bu gün mötəbər beynəlxalq tədbirlərin ev sahibi kimi tanınan Azərbaycan həm də sabitlik məkanıdır. Eyni zamanda rəsmi Bakı bütün dünyada etibarlı tərəfdaş kimi tanınır. Və bütün bunların fonunda NATO və Rusiyanın mühüm strateji məsələlərin müzakirəsi üçün məhz Bakıda bir masa ətrafına əyləşmələri tamamilə başa düşüləndir.

**Rəşad CƏFƏRLİ,**
**“Azərbaycan”**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan məhsulları "Prodexpo 2020" beynəlxalq sərgisində nümayiş ediləcək

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə Azərbaycan məhsulları fevralın 10-14-də Moskvada təşkil ediləcək "Prodexpo 2020" beynəlxalq sərgisində nümayiş olunacaq.

Sərgidə qida sənayesi, şərab və digər spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən 30-dan çox Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində təqdim edəcək. Sərgi çərçivəsində Azərbaycan sahibkarları, həmçinin ikitərəfli görüşlər keçirəcək, ixraca dair müzakirələr aparacaqlar.

## Aİ-nin layihəsi müzakirə olunub

Avropa İttifaqının (Aİ) "Texniki Əməkdaşlıq Aləti" çərçivəsində maliyyələşən "Bacarıqların proqnozu və işçi qüvvəsinin planlaşdırılması sahəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin potensialının gücləndirilməsi" texniki yardım layihəsi üzrə nazirlikdə görüş keçirilib.

Layihə üzrə müqavilənin imzalandığı İBF beynəlxalq konsaltinq şirkətinin nümayəndələri ilə keçirilən görüşdə ölkəmizdə əmək, məşğuluq, sosial müdafiə və sosial təminat sahələrində aparılan islahatlar barədə məlumat verilib. Qeyd edilən layihənin əhəmiyyətindən bəhs olunub, layihə üzrə nəzərdə tutulan iş istiqamətləri diqqətə çatdırılıb. Eləcə də bacarıqların proqnozu və işçi qüvvəsinin planlaşdırılması sahəsində fəaliyyətin təkmilləşdirilməsinə və bu sahədə aparılan islahatlara dəstəyin göstərilməsi istiqamətində əməkdaşlıq müstəvisində görüləcək işlər müzakirə olunub.

## Fermerlərə quraq havaların mənfi təsirlərinin azaldılması yolları barədə tövsiyələr verilib

Lənkəran Regional Aqrar Elm və İnnovasiya Mərkəzində cənub bölgəsinin fermerləri üçün quraq havaların mənfi təsirlərinin azaldılmasına həsr edilmiş elmi seminar keçirilib.

Seminarda mərkəzin rəhbərliyi və Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri Lənkəran, Astara, Masallı, Cəlilabad, Lerik və Yardımlı rayonlarından olan fermerlərə əlverişsiz iqlim amillərinin təsirlərinin azaldılması ilə bağlı tövsiyələrini veriblər. Tədbirdə, həmçinin suya qənaət olunması, torpağın nəmliyini qoruyub saxlayan müasir texnologiyalar haqqında təqdimatlar keçirilib.

Seminarın ikinci hissəsi tarla şəraitində davam etdirilib.

# Dövlət proqramlarının bir hədəfi də qeyri-neft sektorunun inkişafını sürətləndirməkdir



Əvvəli 1-ci səh.

Bu səbəbdən regionların inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları çərçivəsində bölgələrdə sənaye parkları və sənaye zonalarının tikintisinə start verildi. İndiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb ki, bunun da sayəsində 9 mindən çox iş yeri yaradılıb. Ötən il bu zonalarda istehsalın ümumi həcmində 2,6 dəfə artım müşahidə olunub.

Dövlətin həyata keçirdiyi investisiya təşviqi proqramı da müsbət nəticələr verir. Belə ki, indiyədək investisiya təşviqi sənədləri üzrə layihələrin reallaşması yerli istehsala 4 milyard manatdan artıq investisiyanın yatırılmasına, 28 minədək yeni iş yerinin açılmasına imkan verib. Qeyd edək ki, həmin layihələrin 87 faizi regionların payına düşüb.

İqtisadi inkişafda sahibkarlıq fəaliyyətinin xüsusi çəkisi var. Çünki liberal iqtisadiyyatın inkişafı sahibkarlıq fəaliyyətindən asılıdır. Dövlət bu səbəbdən sahibkarlara hər cür dəstək verir. Təkcə ötən il 1573 sahibkarlıq subyektinə 175 milyon manat güzəştli kredit verilib.

Sahibkarlığın inkişafı üçün lazım olan bütün imkanlardan geniş istifadə edilir. Yalnız ixracın təşviqi və qeyri-neft məhsullarının ixracı zamanı çəkilən xərclərin bir hissəsinin qaytarılması mexanizmi çərçivəsində keçən il yerli ixracatçılara 9 milyon manata yaxın vəsait qaytarılıb.

Görülən tədbirlər sayəsində qeyri-neft sektoru məhsullarının ixrac coğrafiyası genişlənir. Dövlət bu ixracın əhatə dairəsinin daha da genişlənməsi üçün dəstək verir. Yüksək keyfiyyət standartlarına malik yerli məhsullara milli keyfiyyət nişanı olan "Made in Azerbaijan" brendi verilməklə onların xarici bazarlara çıxışı təmin edilir.

Qeyri-neft sektorunda kənd təsərrüfatının xüsusi yeri var. Bu sektor həm əhatə dairəsinə, həm də burada çalışanların sayına görə digər sahələrdən fərqlənir. Aqrar sektorun inkişafı ölkənin ümumi inkişafı ilə yanaşı, ərzaq təhlükəsizliyi və məşğulluğun təmin edilməsində də mühüm rol oynayır. Azərbaycanda bu sektorun inkişafına da hər cür dəstək verilir. Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergidən azad edilməsi, texnika və gübrələrin güzəştli şərtlərlə satılması, investisiyalar və ixracın təşviqi, eləcə də digər mexanizmlərdən istifadə bu sahənin inkişafında önəmli rol oynayır. Bütün bu və digər güzəştlər nəticəsiz qalmır.

Eyni zamanda ötən il gəlirlərin şəffaflaşdırılması və uçotun dürüstləşdirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər sayəsində regionlar üzrə dövlət büdcəsinə 817 milyon manat vəsait daxil olub ki, bu da nəzərdə tutulan proqnoz göstəricilərindən 25 faiz çoxdur. Keçən il, həmçinin aqrar sektorun inkişafında böyük rol oynayan 33 rayonda 51 aqropark və iri fermer təsərrüfatlarının yaradılması ilə bağlı planlar çərçivəsində daha 16 aqropark istifadəyə verilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## İsveçrədə diplomatik korpus və rəsmilər Dünya İqtisadi Forumunun Bakı filialı barədə məlumatlandırılıblar

Azərbaycanın İsveçrədəki səfiri Xanım İbrahimova Xəzər hövzəsi regionunun bu ölkədə akkreditə olunmuş səfirlərini və İsveçrə rəsmilərini Dünya İqtisadi Forumunun (WEF) Dördüncü Sənaye İnqilabı Mərkəzinin Bakıda filialının açılacağına dair məlumatlandırıb.

AZƏRTAC xəbər verir ki, səfir son iki ildə Dünya İqtisadi Forumu ilə aparılan danışıqlar nəticəsində bu təşkilatla Azərbaycan arasında dördüncü sənaye inqilabı sahəsində intensiv əməkdaşlığın qurulduğunu bildirib. Qeyd edilib ki, bu ilin yanvarında Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Börge Brende arasında Davosda keçirilən görüşdə Dördüncü Sənaye İnqilabı Mərkəzi və Azərbaycan hökuməti arasında ilk dəfə əməkdaşlığı rəsmiləşdirən sənədin təntənəli mübadiləsi baş tutub.

2019-cu il ərzində Əməkdaşlıq Memorandumunun icrası çərçivəsində Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə Azərbaycan arasında əməkdaşlıq həyata keçirilib. Nəticə etibarilə Dördüncü Sənaye İnqilabı Mərkəzinin Bakı filialının təsis edilməsinə dair Niyyət Protokolu isə bu il yanvarın 21-də Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Börge Brende arasında Davosda keçirilən növbəti görüş çərçivəsində imzalanıb. Beləliklə, Azərbaycan bu cür filialların yaradılacağı çox məhdud sayda ölkələrdən birinə çevrilib.

Səfir X.İbrahimova həmsöhbətlərinin diqqətinə çatdırıb ki, hazırda filialın təsis olunması istiqamətində işlər davam etdirilir.

O da vurğulanmalıdır ki, Bakı filialı Xəzər hövzəsi regionunda bu günə kimi təsis ediləcək ilk mərkəz olacaq və bu qurum regional əhəmiyyət daşıyacaq. Filial Dördüncü Sənaye İnqilabı Mərkəzinin məşğul olduğu süni intellekt, rəqəmsal ticarət, robotexnika və sair kimi sahələrdə imkan və təhdidləri təhlil etməli, bu sahəni tənzimləyəcək normaların yaradılmasına töhfə verməlidir.

Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlıq Azərbaycanın müasir texnoloji tərəqqi sahəsində nailiyyətlərinin dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyinə dəlalət edir. Bu əməkdaşlıq Azərbaycanın rəqəmsal iqtisadiyyata keçidini sürətləndirəcək, eləcə də Azərbaycanın regional liderliyinin daha da möhkəmlənməsinə töhfə verəcək.

## Quba yerli və xarici turistlərin sevimli məkanı olaraq qalır

Quba Azərbaycanın zəngin turizm potensialına malik rayonlar sırasındadır. Hazırda burada 51 mehmanxana fəaliyyət göstərir. 10-a yaxın turizm obyektinin isə tikintisi aparılır.

Ötən il Quba Destinasiya Menecmenti Təşkilatının fəaliyyətə başlaması, keçirilən ənənəvi festivallar rayona yerli və əcnəbi turistlərin marağını daha da artırmışdır. Müqayisə üçün bildirək ki, 2015-ci ildə Qubaya ümumilikdə 23,7 mindən bir qədər çox (onların cəmi 942-si xarici qonaq olmuşdur) turist gəlmişdisə, keçən il təkcə xarici turistlərin sayı 36,4 dəfə artaraq 34,2 minə çatmışdır. Ümumi turistlərin sayı isə 66,8 min nəfər olmuşdur ki, bu da müqayisə edilən dövrdəkindən 2,8 dəfə çoxdur. Amma bunun da son həddi olmayacağı şübhəsizdir. Dövlət başçısının sərəncamları ilə yenidən qurulan yol infrastrukturları rayona gələn turistlərin sayının daha da artacağından xəbər verir.

İndi Qubanın Xınalıq, Qonaqkənd, Buduq, Qırız və Yerfi kimi ucqar kəndlərində dünyanın hər yerindən gələn turistlərə rast gəlmək mümkündür. Bütün bunlar ilk növbədə dövlət tərəfindən rayona göstərilən diqqət və qayğı nəticəsində mümkün olmuşdur.

## Əlil qadınlar üçün peşə hazırlığı kursları təşkil olunur

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işəgötürənlərin sifarişi ilə peşə kurslarının təşkilini davam etdirir.

Növbəti belə peşə kursu "Odlar yurdu" şığorta şirkətinin sifarişi əsasında sığorta agenti peşəsi üzrə təşkil olunub. Əlilliyi olan qadınlar üçün nəzərdə tutulan kursa 30 qadın cəlb edilib. Kursa başlanmazdan əvvəl həmin qadınlarla görüş keçirilib, onlara təşkil olunan kursda təlim prosesi və kursun məqsədi barədə məlumat verilib.

3 ay davam edəcək kurslarda təcrübəli müəllimlər tərəfindən onlara sığorta agenti peşəsi öyrədiləcək. Kursu bitirdikdən sonra həmin qadınlar qeyd edilən sığorta şirkətinin "Çağrı" mərkəzində işlə təmin olunacaqlar.

Qeyd edək ki, işəgötürənlər Dövlət Məşğulluq Xidməti (DMX) ilə həm işçilərin peşə biliklərinin təkmilləşdirilməsi, həm də yeni ixtisaslı kadrların hazırlanması istiqamətində əməkdaşlıq edə bilərlər. İşsiz şəxslərin peşə hazırlığı İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına maliyyələşdirilir. Kurslar üçtərəfli (DMX, təhsil müəssisəsi, müdavimlər) və ya dördtərəfli (DMX, təhsil müəssisəsi, müdavimlər, işəgötürənlər) müqavilələr əsasında təşkil olunur.

# Fədakar neftçi əməyi hər cür hörmətə layiqdir

## Neft Daşlarında iş və məişət şəraitinə yönəldilən diqqət bu amilə əsaslanır

Xəzərin dərinliklərindən "qara qızıl" sərvətini üzə çıxaran neftçinin əməyi nə qədər şərəflidirsə, bir o qədər də çətin və məsuliyyətlidir. Peşənin mürəkkəbliyi, işin ekstremal şəraitdə aparılması, üstəgəl neftçinin öz ev-eşiyindən, isti ocağından uzaqda, necə deyərlər, dənizin ortasında olması... Buna görə də Xəzər neftçilərinin, o cümlədən əfsanəvi Neft Daşlarının əməkçilərinin iş və məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir.









Prezident İlham Əliyev neftçi əməyini həmişə yüksək dəyərləndirir, Azərbaycan neftçisinin böyük hörmətə layiq olduğunu vurğulayır. "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə keçirilən mərasimdə dövlət başçısı bunu bir daha bəyan etmişdir: "Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır".

Azərbaycan neftçilərinin böyük bir dəstəsi də Neft Daşlarında çalışır. Neft Daşları nəhəng sənaye kompleksi olmaqla yanaşı, həm də şəhərdir. Beş və doqquz mərtəbəli evləri (yataqxana binaları), yeməkxanaları və "Çay evi", vertolyot meydançası, çörək zavodu, tibb-sanitar hissəsi və s. olan bir şəhər. Burada təkcə məktəblər və uşaq bağçaları yoxdur. Çünki neftçilər polad dirəklər üstündə qərar tutan bu əfsanə şəhərə əmək növbələrinə gəlirlər. Əsasən bir həftəlik iş günləri bitəndən sonra isə sahilə, ev-eşiklərinə dönürlər. Yeddi gün istirahət edib yenidən Xəzərin qoynuna üz tuturlar.

Hər ayın on beş gününü açıq dənizin qoynunda yaşamaq, ekstremal şəraitdə işləmək asan məsələ deyil. Odur ki, neftçinin növbə çəkdiyi dövrdə necə qidalanması, istirahət saatlarını necə keçirməsi vacib şərtdir. Təsadüfi deyil ki, bu sahəyə diqqət getdikcə daha da artırılır. Xüsusilə son illərdə neftçinin məişətinin, istirahətinin, müalicəsinin yüksək səviyyədə olması üçün çoxsaylı tədbirlər həyata keçirilib.

Neft Daşlarına bələd olmayanlar bəlkə də düşünə bilərlər ki, burada çalışanlara çörək sahildən gətirilir və yolda boyatlaşır. Yaxud onlar quru yeməklərlə, soyuq qəlyanaltılarla dolanırlar. Əsla belə deyil!

"Xəzər İaşə" MMC-nin Neft Daşlarında fəaliyyət göstərən 1 nömrəli yeməkxanasının işçisi Şakir Vəliyev bildirir ki, dəniz şəhərinin özünün çörək zavodu var. Burada bişirilən birinci növ (ağ) çörək və kəpəkli kərpic çörək öz dadına və keyfiyyətinə görə paytaxtda, yaxud hansısa bölgədə bişirilən çörəklərdən geri qalmır. Müəssisədə sutka ərzində altı kisə unun çörəyi bişirilir. İşimizi dəqiq qururuq. Həmişə ehtiyatda un saxlayır və onu dəniz havasının rütubətindən qoruyuruq.

"Neft Daşları" NQÇİ-nin bir çox işçisi stasionar dəniz özüllərində çalışır. Onlara çörək gəmi ilə, vertolyot meydançası olan özüllərə isə hava yolu ilə göndərilir. Bəzən Xəzərdə elə tufan qopur ki... Ona görə özüllərdə də hər ehtimala qarşı un ehtiyatı saxlanılır. Belə ki, bir sıra özüllərin öz aşpazı var. Yeri gəlmişkən, stasionar dəniz özüllərinin hamısına soyuducu, elektrik sobası və elektrik samovarı, mətbəxdə istifadə olunan digər əşyalar verilib. Odur ki, neftçilər təzə yeməkdən, isti çaydan korluq çəkmirlər.

Neft Daşlarının mərkəzi hissəsində isə geniş yeməkxana fəaliyyət göstərir. Neftçilər burada məmnuniyyətlə həm səhər yeməyi yeyir, həm də nahar və şam edirlər. Yeməklərin dadı-tamı evdə bişirilənlərdən heç də fərqlənmir.

İdarənin sosial şöbəsinin əməkdaşları son dövrlərdə neftçilər üçün yaradılan iş şəraiti və məişət rahatlığı barədə danışdılar:

- Neftçilərimiz istirahət saatlarını xoş keçirirlər. "Çay evi"miz, qapalı idman zalımız, kitabxanamız, abad parkımız var. Bir sözlə, çalışırıq ki, neftçilər dənizdə əmək növbəsi çəkdikləri günlərdə, sahilə gedib qayıdarkən yolda-rizdə əziyyət çəkməsinlər. Bunun üçün idarənin rəhbərliyi ilə, şöbənin işçiləri ilə tez-tez söhbətlər aparır, fikir mübadiləsi edir, yeni yollar axtarırıq.

Bunların nəticəsidir ki, son vaxtlarda dəniz şəhərinin əməkçiləri üçün yaradılan şərait xeyli yaxşılaşıb. ƏKS OSMOS qurğuları hər gün tələbata uyğun (230-250 ton) dəniz suyu təmizləyir. Su istilik elektrik stansiyasında qızdırılaraq müntəzəm surətdə yataqxana korpuslarına verilir. İçməli su və ərzaq məhsullarının gəmilərlə gətirilməsində gecikməyə yol verilmir. Qəsəbə ərazisində, yataqxanalarda işçilərin sərnişin gəmisinə minib-düşmə meydançasında, park ərazisində daim təmizlik işləri aparılır.

Parkda 400 ədəd yeni qızılgül kolu əkilib. Bu, Neft Daşlarının həyatında son illərin yeniliyidir. Çünki bir qarış belə torpağı olmayan, polad dirəklərə dayaqlanan bir şəhərdə yaşıllığın salınması, gül-çiçəyin əkilməsi indiyədək bəlkə də ağlabatmaz idi. Lakin buraya sahildən torpaq gətirilərək yaşıllıqlar salınıb. Bu faktın özü də Neft Daşlarının möcüzələr şəhəri olmasına daha bir misaldır.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan şirkəti rəqabətədavamlı məhsullar istehsal edir

"Brightman Business Management Consultans" şirkəti meyvə və tərəvəzlərdən premium seqmentə aid konserv məhsulların istehsalı ilə məşğuldur.

Şirkətin tərkibində heç bir kimyəvi qatqı maddələri olmayan, tam təbii məhsulları bu xüsusiyyətlərinə görə dünyanın qabaqcıl ölkələrinin istehlakçıları tərəfindən həvəslə alınır. Bu gün şirkət "ZİRA Natural and gourmet" brendi altında istehsal etdiyi məhsulları ilə fəxr edir. Mütəxəssislər deyirlər ki, şirkətin istehsal etdiyi məhsulların bir çoxunun tərkibində şəkər yoxdur və onlar sağlam qidalanma üçün nəzərdə tutulub. Odur ki, dünyada gedən total sənayeləşmə fonunda bu cür məhsullar beynəlxalq bazarlarda rəğbətlə qarşılanır.

Şirkətin istehsal etdiyi məhsulların bir özəlliyi də ondadır ki, onlar yalnız yerli mövsümi xammaldan hazırlanır. Bu, həm yüksək keyfiyyətli, pestisitlərsiz xammal əldə etməyə, həm də kiçik fermerlərə öz məhsullarını bazar qiymətindən nisbətən yüksək qiymətə birbaşa alıcıya satmağa imkan verir.

Beş il əvvəl fəaliyyətə başlayan şirkətin məhsul portfelinin unikallığından biri də qədim Azərbaycan reseptlərinin araşdırılaraq üzə çıxarılması, nəsildən-nəsilə ötürülən belə nümunələrin dünya bazarlarında təqdim olunmasıdır. Elə bu səbəbdən şirkətin məhsulları dünyanın bir çox ölkələrində təşkil olunan qida və kənd təsərrüfatı sərgilərində Azərbaycanı yüksək səviyyədə təmsil edərək böyük maraqla qarşılanır.

## EKTİS-də təchizatçıların qeydiyyat modulu hazırlanıb

"Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) gübrə, toxum, pestisid təchizatçılarının, eləcə də baytarlıq, fitosanitariya xidmətləri göstərənlərin özlərini fermerlərə tanıtması üçün ən yaxşı platformadır".

Bu fikirləri Kənd Təsərrüfatı nazirinin müavini İlhamə Qədimova gübrə, pestisid və toxum təchizatçıları ilə görüşdə deyib. "EKTİS təchizatçılara imkan verir ki, rəqabətə dözümlü qiymət, keyfiyyətli və çeşidli məhsul təklif etməklə sistemdə qeydiyyatdan keçmiş fermerləri öz alıcılarına çevirsinlər. Bu platforma həm təchizatçılara, həm də fermerlərə seçilmək və seçim üçün böyük üstünlüklər təqdim edir", - deyə İ.Qədimova bildirib.

EKTİS-də təchizatçıların qeydiyyat modulunun təqdimatı mərasimində çıxış edən Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Mirzə Əliyev isə gübrə və pestisid bazarının tamamilə liberallaşdığını vurğulayıb: "Hazırda EKTİS-də 83 gübrə və pestisid təchizatçısı, 250-dən artıq toxumçu qeydiyyatdan keçib. Lakin görüşdə iştirak edənlərin və bizimlə əlaqə saxlayan, müxtəlif səbəblərdən görüşə qatılmayanların sayı bu rəqəmin bir neçə dəfə artıq olduğunu söyləməyə imkan verir".

EKTİS-də qeydiyyatdan keçməyin vacibliyini deyən agentlik sədri sonra bu proseduru iştirakçılara nümayiş etdirib. Payızlıq əkinlərə gübrə vermək vaxtının başladığını qeyd edən M.Əliyev təchizatçıları qeydiyyatdan keçməyə, satışlarını həyata keçirən mağazaları pos-terminallarla təmin etməyə çağırıb. O, Subsidiya İnformasiya Sistemində bugünədək 465 min 321 fermerin 594 min 855 təsərrüfatının qeydiyyatdan keçdiyini bildirib.

Fermerlərin subsidiyaları yeni qaydalarla alacağına hazırlıqların sürətlə getdiyini deyən AKİA sədri bugünədək 179 min "Fermer kartı"nın sifariş olunduğunu da söyləyib. Çap olunmuş 163 min "Fermer kartı" hazırda tərəfdaş bankın yerli filialları tərəfindən fermerlərə paylanır.

Sonda təchizatçıları maraqlandıran suallara aydınlıq gətirilib.

# Heydər Əliyev Sarayında Xalq artisti Polad Bülbüloğlunun yubiley konserti təşkil olunub

Fevralın 7-də Heydər Əliyev Sarayında Xalq artisti, müğənni-bəstəkar, professor, diplomat, görkəmli ictimai xadim Polad Bülbüloğlunun anadan olmasının 75 illiyinə həsr edilmiş yubiley konserti təşkil olunub.




AZƏRTAC xəbər verir ki, tədbirdə tanınmış elm, mədəniyyət, incəsənət xadimləri, hökumət və dövlət nümayəndələri, habelə ictimaiyyətin üzvləri iştirak ediblər.

Əvvəlcə tamaşaçılar Polad Bülbüloğlunun ifa etdiyi mahnılardan ibarət videoçarxı izləyiblər.

Tədbirin aparıcısı Emin Musəvi yubilyarın Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətləri haqqında məlumat verib. Bildirilib ki, bir neçə gün öncə Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Polad Bülbüloğluna ən ali mükafat "Heydər Əliyev" ordenini təqdim edib.



Qeyd edilib ki, onun musiqi mədəniyyətimizə bəxş etdiyi "Gəl ey səhər", "Zəng et", "Ay Dilbər", "Dolalay", o cümlədən kinofilmlərə yazdığı digər mahnıları, simfonik orkestr əsərləri bu gün də dünyanın ən sevilən musiqiləri sırasındadır.

Xalq artistinin ictimai xadim kimi fəaliyyəti haqqında danışan aparıcı söyləyib ki, o, həm Mədəniyyət naziri kimi, həm də səfir kimi Azərbaycanın mədəniyyətinin inkişafı və inteqrasiyasında çox böyük xidmətlər göstərib.

Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvidkoy çıxış edərək yubilyarı təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıb. Polad Bülbüloğlunun yaradıcılığının özəlliyindən söz açan M.Şvidkoy, onun hələ gənc yaşlarından qeyri-adi istedada malik olduğunu bildirib. O söyləyib ki, Polad Bülbüloğlunun ifasında səslənən bütün mahnılar sevilə-sevilə dinlənilib və bu gün də dinlənilir.

Polad Bülbüloğlunu 75 illiyi münasibətilə bir çox dövlət başçıları və digər yüksəkvəzifəli şəxslərin təbrik etdiyini deyən M.Şvidkoy, onu bu konsertə Xalq artistinin Rusiyadan olan çoxmilyonlu dinləyici və pərəstişkarının göndərdiyini bildirib. O, Rusiya Prezidenti Vladimir Putinin Polad Bülbüloğlunun xalqlarımızın həyatında çox böyük rol oynaması ilə bağlı fikirlərini diqqətə çatdırıb. Vurğulayıb ki, Vladimir Putin Polad Bülbüloğlunun ifaçılığını hər zaman yüksək qiymətləndirib.

Polad Bülbüloğlu tədbirdə iştirak edən hər kəsə təşəkkür edərək deyib: "Xoşbəxtəm ki, fevralın 3-də cənab Prezident İlham Əliyev məni ölkəmizin ən ali mükafatına layiq gördü. Bu mükafat mənim üçün gözlənilməz oldu. Dövlətimizin başçısı mənə çox xoş sözlər dedi. Fürsətdən istifadə edərək dövlətimizin başçısına bir daha təşəkkürümü bildirirəm. Eyni zamanda, Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyeva da məni təbrik edərək xoş arzularını bildirdi. Ona da dərin təşəkkürümü bildirirəm".

Sonra konsert proqramı təqdim olunub. Konsert çərçivəsində Polad Bülbüloğlu 60-70-ci illərdə səsləndirdiyi mahnılara yenidən müraciət edib. Bir-birindən parlaq ifalar yubiley gecəsinə rəngarənglik qatıb, anşlaqla keçən konsert proqramı maraqla qarşılanıb.

Konserti Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kəriminin bədii rəhbərliyi ilə estrada ansamblı müşayiət edib.

# AMEA-da əməkdaşların sağlamlığının mühafizəsi ən ümdə vəzifələrdən biridir

Bütün sahələrdə davamlı inkişaf, dinamik uğurlar əldə edən respublikamiz tarixinin yüksəliş dövrünü yaşamaqdadır. Uğurlarımızın baş memarı olan Prezident İlham Əliyevin mükəmməl idarəçiliyi, düşünülmüş daxili və xarici siyasi kursu ilə ölkəmiz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu, həyata keçirilən islahatlarda daha qabarıq şəkildə özünü büruzə verməkdədir.

Bu da bir faktdır ki, islahatların əsas məqsədini vətəndaşların rifahının daha da yaxşılaşdırılması təşkil edir. Ölkənin hər bir vətəndaşı həyata keçirilən sosialyönümlü islahatların bəhrəsini öz üzərində hiss etməkdədir. İslahatların əsas məqsədlərindən birini də dövlətin bütün sferalarında, idarə və müəssisələrdə stimullaşdırıcı inkişaf mexanizmlərinin uğurlu tətbiqi, yeni islahatlara cavab vermək təşəbbüsləri təşkil edir. Bu baxımdan, elmimizin bayraqdarı, ziyalı mühitimizin ocağı sayılan Azərbaycan Milli Elmlər Akademiyasının üzərinə yeni ciddi məqsəd və vəzifələr düşür. Cənab Prezidentin müasir tələblərə cavab verən çağırışları AMEA rəhbərliyi, kollektivi tərəfindən də tam olaraq dəstəklənir. Bu məqsədlə akademiyanın ümumi fəaliyyətində yeni iş prinsipləri, tendensiyalar işlənib hazırlanıb. AMEA prezidenti akademik Ramiz Mehdiyevin rəhbərliyi və təşəbbüsü ilə akademiyada yenilənmə, kadr və struktur islahatları, əməkdaşların fəaliyyətinin stimullaşdırılmasına xidmət edən yeni fəaliyyət proqramı hazırlanaraq həyata keçirilməkdədir. Akademik Ramiz Mehdiyev əməkdaşların sosial rifahının daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərir və bu məsələni AMEA-nın bütün strukturları üçün prioritet tələb kimi qoyub. Bu baxımdan, AMEA Azad Həmkarlar İttifaqının üzərinə də xüsusi bir məsuliyyət düşür. Belə ki, çoxminlik akademiya kollektivinin sosial problemlərinin həlli, korporativ fəaliyyətlərinin təşkili daha çox Həmkarlar İttifaqının fəaliyyət çevrəsinə aid olan məsələlərdəndir.

Əməkdaşların sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində tələb və iş prinsipinə uyğun olaraq, AMEA Həmkarlar İttifaqı bir sıra uğurlu tədbirlər həyata keçirib. Xüsusən də əməkdaşların böyük əksəriyyətinin yaşlı insanlar olmasını, keçici virusların qış fəslində daha da aktivləşdiyini nəzərə alaraq 2020-ci ilin yanvar ayında Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə respublikanın aparıcı klinikalarından olan Akademik Z.Əliyeva adına Milli Oftolmologiya Mərkəzi və "MedEra" hospitalının tibbi personalı akademiyaya dəvət edilib və yüksəkixtisaslı həkimlər qrupu yüzlərlə əməkdaşı təmənnasız tibbi müayinədən keçiriblər. Akademik Z.Əliyeva adına Milli Oftolmologiya Mərkəzinin həkimləri akademiya Şəhərciyinin həyətində səyyar avtobus-klinikasında ən müasir tibbi avadanlıqlardan istifadə etməklə əməkdaşların gözlərini müayinə ediblər. Bundan birneçə gün sonra isə "MedEra" hospitalının həkim personalı yenə də ən müasir tibbi avadanlıqları ilə əməkdaşların nevroloji, terapevtik və kardioloji müayinəsini həyata keçiriblər. Bu sosialyönümlü aksiyanın keçirilməsinə səbəb olan digər önəmli bir amil isə Çində yaranan və dünyanın onlarla ölkəsinə ayaq açan, 25 minə yaxın insanın yoluxduğu, yüzlərlə insanın həyatını itirdiyi "koronavirus" virusu ilə bağlıdır. Bu virus respublikamız üçün real təhlükə yaratmasa da, önləyici tədbirlərin həyata keçirilməsi vacibdir. Bu virusun nə dərəcədə ciddi və təhlükəli olduğunu nəzərə alaraq Prezident İlham Əliyev aidiyyəti təşkilatlara müvafiq tədbirlərin görülməsi üçün xüsusi tapşırıqlar verib. Bunu nəzərə alan AMEA Azad Həmkarlar İttifaqının internet saytının "Əməyin Texniki Təhlükəsizliyi və Sağlamlıq" bölməsində virusla bağlı geniş məlumat yerləşdirilib. Burada "koronavirus"un əlamətləri, yaranması və yayılması şəraiti, ilkin yardımın göstərilməsi, xəstəliyin məhdudlaşdırılması və sairə ilə bağlı geniş mütəxəssis rəyi və məlumatlar yer alıb.

Eyni zamanda AMEA-nın bütün həmkarlar təşkilatlarının sədrlərinə virusla bağlı yazılı məlumatlar göndərilib, əməkdaşlar arasında maarifləndirici tədbirlərin həyata keçirilməsinə tövsiyə və göstərişlər verilib. Artıq AMEA Azad Həmkarlar İttifaqının Təşkilatçılığı ilə Riyaziyyat və Mexanika, Fizika, Coğrafiya, Aşqarlar Kimyası İnstitutlarında, Respublika Seysmoloji Xidmət Mərkəzində "koronavirus"la bağlı maarifləndirici tədbirlər keçirilib və ərazilər üzrə Gigiyena və Epidemologiya Mərkəzlərinin dəvət olunmuş epidemoloqları koronavirus və ondan qorunma yolları haqqında tədbir iştirakçılarına məlumatlar veriblər.

Ümumiyyətlə, əməkdaşların sağlamlığının diqqət mərkəzində saxlanılması hər zaman AMEA Azad Həmkarlar İttifaqının fəaliyyətində əsas prioritet istiqamət təşkil edib. Hər il yüzlərlə akademiya əməkdaşı pulsuz tibbi müayinəyə cəlb edilir. Akademiya əməkdaşları müalicə, istirahət məqsədilə respublikanın aparıcı sanatoriya, kurort mərkəzlərinə göndərilir. AMEA Həmkarlar İttifaqı əməkdaşlarının səhhəti, sağlamlığı, asudə vaxtlarının təşkili, sosial rifahlarının yaxşılaşdırılması istiqamətində öz fəaliyyətini günün tələbləri səviyyəsində qurur və bu məsələləri daim diqqət mərkəzində saxlayır. Bu da ölkədə həyata keçirilən sosial siyasətə, əməkdaşların fəaliyyətlərinin daha da stimullaşdırılmasına öz töhfəsini verir.

***Habil QURBANOV,***
***AMEA Azad Həmkarlar İttifaqının sədri,***
***hüquq üzrə elmlər doktoru, professor***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Tarix İnstitutunun xarici dillərdə nəşr olunan kitabları dünya kitabxanalarına göndəriləcək

Fevralın 7-də AMEA Tarix İnstitutunun xarici dillərdə nəşrləri Azərbaycan Milli Kitabxanasına təqdim edilib. Bu münasibətlə Mədəniyyət Nazirliyi, Tarix İnstitutu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbiri açan Milli Kitabxananın direktoru, professor Kərim Tahirov kitabxananın Tarix İnstitutu ilə sıx əməkdaşlıq etdiyini deyib. O bildirib ki, hər il Tarix İnstitutunda çap olunan kitablar Milli Kitabxanaya təqdim edilir. Sonra isə həmin kitablar bizim tərəfimizdən dünya kitabxanalarına çatdırılır. İnstitutda Qarabağın, İrəvanın, Naxçıvanın, habelə soyqırımlarının və itirilmiş torpaqların tarixi araşdırılaraq həqiqəti əks etdirən əsərlər yazılıb. Elmi müəssisə əsərlərin xarici dillərdə nəşrini və dünya ölkələrində yayılmasını diqqət mərkəzində saxlayır.

Kərim Tahirov qeyd edib ki, Azərbaycan Milli Kitabxanası dünyanın 70-dən çox ölkəsi ilə kitab mübadiləsi aparır. Çalışırıq ki, mübadilə zamanı tarixi kitablara xüsusi diqqət ayıraq. Tarix İnstitutunun xarici dillərdə nəşrlərinin Azərbaycan Milli Kitabxanasına təqdim edilməsi bizim bu sahədə işlərimizə bir töhfədir. Kitabxanamız bir il ərzində 10-dan çox beynəlxalq kitab sərgisində iştirak edir. Bundan sonra Tarix İnstitutunun xarici dillərdə nəşrləri iştirak etdiyimiz beynəlxalq sərgilərdəki stendimizdə də nümayiş olunacaq.

"Bu gün Tarix İnstitutunun kitabxanamıza təqdim olunan xarici dillərdə nəşrləri yaxın bir ay ərzində əməkdaşlıq etdiyimiz dünya kitabxanalarına göndəriləcək", - deyə Kərim Tahirov qeyd edib.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov çıxışında deyib ki, Prezident İlham Əliyevin təşəbbüsü, çağırışları və tapşırıqları əsasında son illər Tarix İnstitutunda 500-ə yaxın tədqiqat əsəri, o cümlədən dünyanın müxtəlif dillərində - rus, ingilis, alman, fransız, ispan, italyan, ərəb, gürcü, fars, erməni və başqa dillərdə kitablar işıq üzü görüb. Xarici dillərdə olan nəşrlər arasında "Heydər Əliyev ideyalarının zəfər yürüşü", "Azərbaycan: qısa dövlətçilik tarixi", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi", "Real tarix və "Böyük Ermənistan" uydurması", "1918-1920-ci illərdə Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı", "Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix", İrəvan xanlığının tarixi ilə bağlı broşürlər və digər kitablar var.

Tarix İnstitutunun xarici dillərdə nəşrlərinin Azərbaycan Milli Kitabxanasına təqdim edilməsi dövlətimiz üçün çox əhəmiyyətlidir. Çünki kitabların dünya ölkələrinə çatdırılması istiqamətində Milli Kitabxananın beynəlxalq əlaqələri daha genişdir. Bu da Azərbaycanın tarixi və bugünü haqqında faktlarla zəngin kitabların dünya oxucusuna çatdırılmasına zəmin yaradacaq.

"Tarix İnstitutunun xarici dillərdə nəşr olunan kitablarının dünya kitabxanalarına göndərilməsi, xarici oxucuların real tarixi bilmələri vacibdir. İnanıram ki, bu sahədə Azərbaycan Milli Kitabxanası ilə əməkdaşlığımız uğurlu olacaq. Biz əl-ələ verərək Azərbaycan həqiqətlərinin, real tarixi faktların dünyaya çatdırılmasına öz töhfələrimizi verəcəyik", - deyə akademik Yaqub Mahmudov vurğulayıb.

AMEA-nın I vitse-prezidenti yanında fəaliyyət göstərən ictimai elmlər üzrə Elmi Şuranın sədr müavini, akademik Nərgiz Axundova, Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini Tofiq Nəcəfli, institutun aparıcı elmi işçisi Aypara Rüstəmova və institutun şöbə müdiri Şahin Fazil qeyd ediblər ki, bu gün Tarix İnstitutunun nəşrləri türk, ingilis, rus, ərəb, alman, fransız, italyan və başqa dillərdə oxunur. Azərbaycan tarix elmi İrəvan xanlığına, Qarabağ və Naxçıvan tarixinə həsr olunmuş fundamental əsərlərdə erməni saxtakarlarını ifşa edib. Dövlət başçısı bütün bu uğurlara görə institutun 13 əməkdaşını Azərbaycanın Dövlət mükafatına layiq görüb.

Milli Kitabxana tərəfindən Tarix İnstitutuna mikrofilmlərin oxunması üçün Yaponiya istehsalı olan xüsusi avadanlıq hədiyyə edilib.

Sonda Nərgiz Axundova Yaqub Mahmudova Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Türk dünyasında ilin elm adamı" beynəlxalq mükafatını və İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərən "UN Council for Public Awards" (UNCOPA) təşkilatının "Avropa lideri ulduzu" ordenini təqdim edib. Yaqub Mahmudova akademiyanın mükafatı 2019-cu ildəki uğurlarına görə, təşkilatın ordeni isə dünya elmi və təhsilindəki xidmətlərinə görə verilib.

Yaqub Mahmudov bundan əvvəl Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü seçilib və türk dünyası elmi və təhsilinə verdiyi böyük töhfələrə görə akademiyanın "Beynəlxalq Qızıl Ulduz" medalı və Beynəlxalq Atatürk Mükafatı ilə təltif edilib.

# "azergold.gift" saytı istifadəyə verildi










"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən yerli xammaldan istehsal olunan sikkə və külçələrin onlayn qaydada sifarişinin həyata keçirilməsi məqsədilə **azergold.gift** saytı istifadəyə verilib. Onlayn sifariş xidməti 999.9 əyarlı qızıl, gümüş sikkələri, eləcə də qızıl külçələri mağazaya getmədən istənilən vaxt sifariş vermək, qiymət və satış nöqtələri ilə bağlı məlumatlar əldə etmək imkanı yaradır.

Alıcılara təklif edilən məhsullar "AzerGold" QSC-nin Azərbaycanın Daşkəsən rayonunda yerləşən Çovdar Filiz Emalı Sahəsində hasil etdiyi qiymətli metallardan, ən müasir texnologiyalardan istifadə edilməklə hazırlanır. Qızıl və gümüş sikkələr, eləcə də qızıl külçələr 5, 10, 20 qramlıq çəkilərdə, tariximizi, mədəniyyətimizi və incəsənətimizi təbliğ edən Heydər Əliyev Mərkəzi, Qobustan qayaüstü rəsmləri və Qarabağ xalçasının naxışı "Çələbi" olmaqla üç müxtəlif dizaynda tərtib olunur. Premium-klass keyfiyyətli məhsullar ölçüyə uyğun müxtəlif qablaşdırmalarda beynəlxalq sertifikatla birgə alıcıya təqdim edilir.

Qeyd edək ki, zövqə uyğun seçilən hər hansı qızıl və gümüş məmulatlarını dəst şəkildə də sifariş etmək mümkündür. Saytının istifadəyə verilməsi ilə qarşıdan gələn əlamətdar günlər və bayramlar ərəfəsində alıcılara uyğun seçim imkanı və xüsusi fürsətlər təqdim edilir. Qızıl və gümüş məhsulları "Əsl dəyəri hədiyyə et!", şüarı ilə müştərilərə təklif olunur.

# Paşinyan bu dəfə konstitusiyanı dəyişdirir

## Buna görə işğalçı ölkədə referendum çəkişməsi böyüyür

Ermənistan cəmiyyətində Paşinyan iqtidarından artan narazılığın yüksələn xətt üzrə inkişaf etməsi bu ölkədə ictimai-siyasi, sosial-iqtisadi gərginliyi daha da artırır. Hadisələrin inkişaf axarı yaranan gərginliyin xalqla hakimiyyət təmsilçilərinin daha kəskin ziddiyyətə, hətta qarşıdurmaya gedəcəyini belə istisna etmir. Paşinyan isə hər vəchlə hakimiyyətini möhkəmlətmək üçün müxtəlif üsullara əl atır və bunun üçün aktiv hərəkətə keçir.

Bir neçə müddətdir Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında yaranan qarşıdurma artıq daha gərgin mərhələsini yaşamaqdadır. Belə ki, uzunmüddətli mübarizədən sonra Ermənistan parlamentinin təcili iclasında Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin istefasına dair referendum keçiriləcəyi barədə qanun layihəsi təsdiq edilib.

Konstitusiya Məhkəməsinin yeni tərkibini müəyyən etmək üçün nəzərdə tutulan referendum barədə qanun layihəsinin lehinə 88 deputat, əleyhinə isə 15 deputat səs verib. "Çiçəklənən Ermənistan" fraksiyası səsvermədə iştirak etməyib. Yerli medianın yazdığına görə, referendum mart ayının sonu və ya aprelin əvvəlində keçirilə bilər. Böyük əksəriyyəti baş nazir Nikol Paşinyanın Vətəndaş Sazişi Partiyasının üzvü olan "Mənim addımım" bloku 132 deputatdan ibarət parlamentdə 88, Çiçəklənən Ermənistan Partiyası 26, İşıqlı Ermənistan Partiyası 17 mandatla təmsil edilir.

Qeyd edək ki, Ermənistan Konstitusiyasına "Mənim addımım" fraksiyası tərəfindən hazırlanmış düzəlişlərə əsasən, Konstitusiya Məhkəməsi sədrinin və üzvlərinin səlahiyyətlərinə xitam verilməsi nəzərdə tutulur. Bu dəyişikliklər 9 hakimdən ikisinə - Vaqe Qriqoryanla Armen Dilanyana şamil edilmir. Digər 7 hakim və sədr Hrayr Tovmasyan isə yeni düzəlişlərin əsas hədəfidir.

Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı Tovmasyanın üçüncü prezident Serj Sarkisyanın tərəfdarı olduğunu və konstitusiya mətninin onun maraqlarına uyğun dəyişdiyini iddia edib: "Sarkisyanla Tovmasyan arasında belə bir razılaşma əldə olunub ki, məhkəmə sədri ona ölkəyə ömürlük rəhbərlik etməsinə şərait yaradan mətn hazırlamalı və həmin mətn 2035-ci ilədək onu qorumalıdır".

"Lragir" qəzeti yazır ki, "Mənim addımım" blokundan olan deputatların heç də hamısı Konstitusiya Məhkəməsinin hakimləri ilə bağlı layihəyə imza atmağa razılıq verməyiblər. Verilən xəbərə görə, bilinəndə ki, layihəyə yalnız 37 nəfər imza atıb və həmin şəxslərin arasında Nikol Paşinyanın qardaşı oğlu, qaynı, həmçinin bəzi vəkillər yoxdur, parlament rəhbərliyindən izahat tələb ediblər və layihənin "əleyhinə" səs verəcəklərini söyləyiblər. Bu isə iclasdan əvvəl layihənin geri çağırılmasına, imzaların əlavə edilməsinə səbəb olub. Nəticədə layihə 44 deputatın imzası ilə təqdim edilib.

Xatırladaq ki, ötən ilin oktyabrında Ermənistan parlamenti "Mənim addımım" iqtidar fraksiyasının təşəbbüsü ilə sədrin səlahiyyətlərinin dayandırılması məsələsi ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət etmişdi. Amma Konstitusiya Məhkəməsi parlamentin müraciətinə baxmaqdan imtina etmiş və bunu "müəyyən edilmiş reqlamentə" əməl olunmaması ilə əsaslandırmışdı. Bundan sonra iqtidar partiyası Konstitusiya Məhkəməsinin üzvləri üçün "vaxtından əvvəl pensiya sistemi haqda" qanun hazırlayıb. Bu qanuna əsasən, Konstitusiya Məhkəməsinin sədri və üzvlərinə istefaya getmələri üçün 2020-ci il dekabrın 31-nə qədər müddət verilir, əvəzində onlara aldıqları əməkhaqqı həcmində (2 min ABŞ dollarından çox) ömürlük pensiya təklif olunur. Parlament müxalifəti isə bu qanunu "qanuni rüşvət" adlandırıb və əleyhinə səs verib. İqtidarda olan çoxluq qanunu qəbul etsə də, hələlik hakimlərdən heç biri pensiyaya çıxmayıb.

Qeyd edək ki, hakimiyyət dəyişikliyindən sonra Paşinyan iqtidarı tərəfindən törədilən qanunsuzluq hallarının sürətlə artması ölkənin üzləşdiyi fəlakətlərin miqyasını davamlı şəkildə genişləndirir. Elə bu fonda Ermənistan iqtisadiyyatının, sosial həyatının və digər sahələrinin, o cümlədən xalqın ümumi yaşayışının tənəzzülü hesabına hakimiyyət öz sərvətini artırır.

Paşinyan hakimiyyətinin tamamilə başqa yol tutduğunu təəssüflə qeyd edən "İrates" qəzeti yazır ki, yeni hökumət islahatları deyil, köhnə qvardiyadan intiqam və qisas yolunu seçdi. Bildirilib ki, heç bir peşəkar kadr öz fəaliyyətini və həyatını qisasçı hakimiyyət ilə birləşdirmək istəməz və qisasın daha bir qisas doğuracağını hamı başa düşür: "Peşəkarların olmadığı hər hansı hakimiyyət isə öz varlığını qorumaq üçün mütləq yeni repressiyalara əl atır. Biz açıq gözlə artıq bu mərhələyə daxil olmuşuq və erməni xalqı inqilab əvəzinə mənasız hakimiyyət dəyişikliyi əldə edib".

Bütün bunlar xalqın böyük narazılığına yol açır və bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın şəkildə göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***





# Ədəbiyyat





Realist sənətkar

# Böyük ədibin Kəhrizli həyatı

**Görkəmli yazıçı-dramaturq, Azərbaycanın mətbuat tarixində "Molla Nəsrəddin"çi mübariz qələm sahibi kimi yeni bir səhifə açmış Cəlil Məmmədquluzadənin çoxşaxəli fəaliyyətinin bir parçası da Qarabağın dilbər guşələrindən biri olan Ağcabədinin Kəhrizli kəndi ilə bağlıdır.**

**C.Məmmədquluzadənin Ağcabədi ilə əlaqəsinin səbəbkarı məşhur Qarabağ xanlığının banisi Pənahəli xanın nəslindən olan Cəfərqulu ağanın oğlu Kəhrizli Əhməd bəy Cavanşirin qızı Həmidə xanım Cavanşirdir.**

**Mirzə Cəlillə Həmidə xanımın tanışlığı 1903-cü ildə Tiflisdə olmuşdur. Belə ki, Həmidə xanım yenicə vəfat etmiş atası Əhməd bəy Cavanşirin şeirlər kitabını çap etdirmək üçün Tiflis şəhərinə gedir. Bu zaman Tiflisdə "Şərqi-rus" qəzetində işləyən Cəlil Məmmədquluzadə ilə tanış olur və onun köməyi ilə atasının şeirlərini Tiflisdə kitab halında çap etdirir.**





Həmidə xanımın açıq fikirliliyi, həyata düzgün baxışı ədibdə ona qarşı böyük rəğbət hissi yaradır və bu ünsiyyət dörd il sonra mehriban ailə həyatına çevrilir.

Həmidə xanım həmişə kəndlilərin tərəfini saxlayır, onların qeydinə qalır, dar ayaqda dadlarına çatırdı. Öz xərci ilə kəhrizlər qazdırır, həmkəndlilərinin əkinlərinə su verir, onlara tibbi yardım göstərir, məktəb, toxuculuq emalatxanası və dəyirman açaraq yoxsul kəndlilərin ehtiyacını ödəyirdi. Məhz bu canyananlığın, xeyriyyəçiliyin və kəndlilərə belə həmdəm olmağın nəticəsidir ki, onun adı el-oba yanında həmişə əziz olub, doğmalaşmışdı.

C.Məmmədquluzadə ilə Həmidə xanımın birgə ailə həyatı 1907-ci il iyun ayının 15-dən başlamışdır. Həmin dövrdən etibarən böyük ədib ömrünün sonunadək müxtəlif fasilələrlə Ağcabədidə - Kəhrizli kəndində yaşamışdır.

Mirzə Cəlil ilk gündən özünü kəndin doğma adamı kimi aparır, kənd əhalisinə qaynayıb-qarışırdı. Çox keçmədən o, kənddə hamının hüsn-rəğbətini qazanır. Sonralar kəndə hər gəlişində özü ilə əhali arasındakı bu mehribanlıq daha da artır, bu yerlərə qəlbən bağlanırdı. Sevimli həyat və məslək yoldaşı Həmidə xanım həmin unudulmaz illəri xatırlayaraq yazır ki, bir dəfə Mirzə Cəlil mənə dedi: "Kəhrizliyə gələrkən hələ uzaq məsafədən yan-yana düzülmüş uca qovaq ağaclarını görüb malikanəmizi tanıyır və bu zaman ürəyim sevinclə döyünməyə başlayır. Doğma ailəmə, mənim üçün əziz olan dost-aşnaya tez qovuşmaq üçün faytonçunu tələsdirirəm. Mən ancaq burada, təbiətin bu sakit guşəsində özümü xoşbəxt hiss edirəm. Jurnalın qarşısında öz borcumu yerinə yetirdikdən sonra ömrümün son illərini bu sakit guşədə keçirmək istərdim..."

C.Məmmədquluzadə əsəblərinin sakitləşdiyi, mənəvi zövq aldığı bu yerlərə təkcə istirahət xatirinə gəlmirdi. O, hər dəfə kəndə gəlişində əhalinin qeydinə qalır, camaatla çiyin-çiyinə kəndin müəyyən bir işinə kömək edirdi. O, nəinki kəndin mühüm işlərində, habelə xırda təsərrüfat işlərində də çalışaraq dəyirmana gedir, taxıl səpir, əkinləri suvarır, bağdakı ağaclara qulluq edirdi. 1919-cu ilin payızında o, sevimli həyat yoldaşına yazırdı: "Gözün aydın olsun, Həmidə! Bu il taxıl əkinlərimiz yaxşı tutub, ona görə ki, sahələri vaxtında şumladıq. Gələn il dəni tökməyə yer tapmayacaqsan. Kəndlilər də mənə baxıb taxılı vaxtında səpdilər. Əgər çəyirtkə, dolu və quraqlıq olmasa, bu il bol məhsul götürüləcək".

C.Məmmədquluzadənin kəndlilərə əvəzsiz xidmətləri ilk növbədə kənddə məktəb və toxuculuq emalatxanası açılmasında göstərdiyi yüksək qayğıdır. O, bu sahədə Həmidə xanıma yaxından kömək edərək həvəslə işə girişir, usta çağırtdırıb 20 ədəd skamya və sinif lövhəsi hazırladır. Həmidə xanımla bərabər lazım olan müxtəlif dərs ləvazimatı toplayır, həmçinin məktəbin ilk müəllimi olaraq şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur. Mirzə Cəlilin Kəhrizlidə ən böyük xidmətlərindən biri də kənddə kitabxana açması olmuşdur. Maraqlıdır ki, bu kitabxana Ağcabədidə açılan ilk kitabxana idi. Şura hökuməti gələndən sonra hökumət adamları həmin kitabxananı dağıdıb Şuşaya aparmışdılar.

Cəlil Məmmədquluzadənin Ağcabədi, xüsusilə Kəhrizli kəndi ilə bağlılığını araşdırarkən Həmidə xanımın həmin kənddə açdığı məktəbdə özünün təşkil etdiyi "Molla Nəsrəddin" adına kitabxananın bərpası ilə əlaqədar olaraq 2 iyul 1921-ci ildə Xalq Maarif Komissarı Dadaş Bünyadzadəyə ərizəsi diqqət çəkir:

"1907-ci ildə həyat yoldaşım Həmidə xanım tərəfindən Şuşa qəzasının Kəhrizli kəndində yaradılmış xalq məktəbinin nəzdində mənim tərəfimdən "Molla Nəsrəddin" adına kitabxana təşkil olunmuşdur. Həmin kitabxana illərlə zənginləşdirilərək beş böyük şkafda yerləşirdi. Keçənilki inqilab zamanı bizim iştirakımız olmadan kitabxananın bir hissəsi talan edilmiş, bir hissəsi isə müsadirə olunmuş və deyilənə görə, Şuşa şəhərində yerləşir.

Xalq Maarif Komissarlığından xahiş edirəm ki, həmin kitabxana Həmidə xanımın iştirakı ilə bərpa olunsun və Kəhrizli kəndində savadlı kəndlilərin bu xalq sərvətindən istifadə etməsi üçün Həmidə xanımın ixtiyarına verilsin".

*Cəlil Məmmədquluzadə*
*2 iyul 1921-ci il*

Həmin ərizə ilə əlaqədar müvafiq tədbir görülmək üçün Xalq Maarif Komissarı Dadaş Bünyadzadənin Şuşa qəza maarif şöbəsinə göndərdiyi məktubda yazılır:

"Şuşa qəzasının Kəhrizli kəndində 1907-ci ildə Həmidə xanım tərəfindən yaradılmış xalq məktəbinin nəzdində yerləşən, "Molla Nəsrəddin" adına kitabxana keçən il müsadirə olunmuşdur. Deyilənə görə hal-hazırda Şuşa şəhərində yerləşir.

Yuxarıda yazılanları və adı çəkilən kitabxananın yaradıcısı Həmidə xanımın həyat yoldaşı Cəlil Məmmədquluzadənin müraciətini nəzərə alaraq, xahiş olunur ki, kitabxananın qorunub saxlanması və yerli Kəhrizli əhalisinə xidmət məqsədilə Kəhrizli xalq məktəbinə köçürülməsi üçün müvafiq tədbir görəsiniz".

*Dadaş Bünyadzadə*
*16 iyul 1921-ci il*

Yuxarıdakı hər iki sənəddən aydın olur ki, 1907-ci ildə Kəhrizli kəndində Həmidə xanımın açdığı məktəb Ağcabədidə ilk məktəblərdən biridir. Həmin məktəbin nəzdində görkəmli yazıçı, jurnalist Cəlil Məmmədquluzadənin açdığı "Molla Nəsrəddin" adına kitabxana isə Ağcabədinin ilk kitabxanası olmuşdur.

Təqdirəlayiq haldır ki, görkəmli alim Ataxan Paşayev "Molla Nəsrəddin jurnalının nəşri tarixindən" adlı tədqiqat əsərində Cəlil Məmmədquluzadənin həyatının Kəhrizli ilə bağlı səhifələrinə ətraflı aydınlıq gətirir.

Kəhrizli kəndində toxuculuq emalatxanasının açılması işində də Mirzə Cəlilin xidməti az olmamışdır. O, yenə də Həmidə xanımın ən yaxın silahdaşı olmuş, əlaqədar təşkilatlara müraciət edərək bu işə icazə alınmasına və lazımi şəraitin yaradılmasına nail olmuşdur.

Cəlil Məmmədquluzadənin Kəhrizli kəndi ilə yaxın, mehriban əlaqəsi doğma qardaşı Ələkbərin də bir müddət hökumətdən gizlənərək həmin kənddə yaşamasına və orada da dəfn edilməsinə səbəb olmuşdur. Hazırda Cəlil Məmmədquluzadənin qardaşı Ələkbərin qəbri Ağcabədinin Kəhrizli kəndindədir.

Ağcabədi mühiti ilə bağlılıq şübhəsiz ki, C.Məmmədquluzadə kimi həssas bir yazıçının yaradıcılığına da öz təsirini göstərməyə bilməzdi. Həmidə xanımın qeyd etdiyi kimi, ədib "Anamın kitabı" pyesinin müəyyən hissəsini və "Molla Nəsrəddin" jurnalı üçün baş məqalələrin bir çoxunu, eləcə də 1907-ci ildə "Molla Nəsrəddin" jurnalının 24-cü nömrəsində çap olunan "Hanı 45 min manat" adlı felyetonunu Kəhrizlidə yazmışdır. Yazıçı "Oğru inək" hekayəsinin mövzusunu da Kəhrizli mühitindən götürmüşdür. "Ölülər" pyesinin qəhrəmanı Kefli İskəndər, eləcə də əsərin bir neçə prototipi Ağcabədinin Hüsülü kəndi ilə bağlıdır. Kefli İskəndər tanınmış şəxs olub. Hüsülü kəndində yaşayan Hacı Həsən ağanın oğlu idi. Bu obrazın prototipi olan İskəndər adətən öz üzüm bağından şampana oxşayan gözəl şərab çəkir, camaatın və mollaların tənələrinə baxmayaraq həmişə içib kefli olurdu. Buna görə də kənddə hamı onu "Kefli İskəndər" deyə çağırırdı.

Həmidə xanım qeyd edir ki, hər gün gecə kənd yuxuya gedir, tam sükut yarandıqdan sonra Mirzə Cəlil yazı masasının arxasında oturur, jurnal üçün baş məqalələr və felyetonlar yazır, qalın bir dəftərə nə isə köçürürdü.

C.Məmmədquluzadənin kənd həyatı ilə yaxından əlaqəsi və bağlılığı Kəhrizli camaatının gündəlik həyatına və dünyagörüşünə mühüm təsir göstərirdi. O, açıq fikirləri ilə camaatın gözünü açır, güclü məntiqi, nəzakətli davranışı, habelə Həmidə xanıma və kəndlilərə qarşı olan mehribanlığı ilə ailə-məişət münasibətlərinə də müəyyən təsir göstərirdi.

Mirzə Cəlil Həmidə xanımın xeyriyyəçi fəaliyyətini məhdud bir çərçivədən çıxarıb ictimai aləmə qovuşdurdu. O, maddi imkanlarını "Molla Nəsrəddin" jurnalının nəşrinə, əbədiyaşar sənətkarımız M.Ə.Sabirin müalicəsinə, öz vəsaiti ilə Tiflisdə Qızlar Məktəbinə müəllim təyin olunmasına, həmçinin müxtəlif ictimai tədbirlərin keçirilməsinə sərf edərək mədəni aləmdə böyük nüfuz qazandı.

C.Məmmədquluzadənin Kəhrizlidə keçən həyatı bu məkanın mədəni inkişafındakı xidmətləri, Ağcabədi tarixinin şərəfli səhifələrindəndir.

***Şirxan ARANLI,***
***Ağcabədidə çıxan***
***"Aran" qəzetinin redaktoru***

Xəbərlər

## Sumqayıtda "Gənci-Nihan mənəm" layihəsinə yekun vurulub

**Sumqayıt Gənclər Evində "Gənci-Nihan mənəm" layihəsi çərçivəsində II, sonuncu bədii qiraət müsabiqəsi təşkil edilib.**



Tədbirdə çıxış edən gənc şair Əliyar Rəfiyev layihənin Gənclər Fondunun XIII qrant müsabiqəsində qalib olduğunu, onun Azərbaycan bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin yaradıcılığına həsr edildiyini qeyd edib. Ə. Rəfiyev bildirib ki, məqsəd Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığının vurğulanması, milli mədəni-mənəvi dəyərlərin təbliği, istedadlı və yaradıcı gənclərin üzə çıxarılması və dəstəklənməsidir. Çünki Nəsimi irsi gənc nəslə örnəkdir və daim öyrənilməlidir.

Digər çıxış edənlər şəhər gənclər və idman baş idarəsinin gənclərlə iş sektorunun müdiri Ceyhun Hüseynov, Azərbaycan Yazıçılar Birliyinin üzvü Lilpar Cəmşidqızı, şair-qəzəlxan Mahir Məmmədov, Samir Hacı və layihə koordinatoru Əli Miriyev bildiriblər ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet dönəmində Bakıda şairin abidəsi ucaldılmış, onun adının əbədiləşdirilməsi üçün çox işlər görülmüşdür. Prezident İlham Əliyevin İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi və 2019-cu ilin Azərbaycanda "Nəsimi ili"nin elan edilməsi haqqında sərəncamları isə bu gün ölkəmizdə şairə verilən yüksək dəyərin əyani göstəricisidir.

Daha sonra layihənin sonuncu müsabiqəsinə start verilib. Poeziya yarışması seçilmiş şeirlərin məzmuna uyğunluğu, jest və mimikalardan, səs tonundan məqsədyönlü istifadə, nitqin aydınlığı, səlisliyi və ifadəliliyi, təqdimetmə bacarığı kimi meyarlar nəzərə almaqla keçirilib.

Yekunda münsiflər heyətinin qərarına əsasən birinci yerə Roza Xəlilova, ikinci yerə İlahə Qafarova, üçüncü yerə isə Tərlan Əliyev layiq görülüb. Qaliblərə sertifikat və hədiyyələr təqdim edilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Gənclərə hədiyyə

**Sumqayıt Dövlət Dram teatrında hər zaman gənclərə önəm verilir. Təkcə son iki ildə bir neçə gənc aktyor truppasına qəbul olunub. Yeni hazırlanan tamaşalarda gənclərə təcrübələrini artırmaq üçün geniş imkan yaradılır. Kiçik yaşlı tamaşaçılarda teatra marağın artırılması, məktəblilərlə görüşlərin təşkil edilməsi yönündə bir çox layihələr həyata keçirilir.**

Gənclər günü kollektiv C.Cabbarlının "Solğun çiçəklər" tamaşası ilə teatrsevərlərin görüşünə gəlib. Yaradıcılıq mübadiləsi üçün teatra dəvət edilmiş istedadlı rejissor Elşən Zeynallının quruluş verdiyi tamaşada rol alan gənc aktrisalar Şəhla Məmmədova və İlahə Səfərova mükəmməl oyun nümayiş etdiriblər. Tamaşa iki gəncin faciəvi məhəbbət dramı üzərində qurulub. Tamaşa ötən əsrin əvvəllərində baş vermiş hadisəni işıqlandırsa da, əslində, didaktik-nəsihətverici fakt kimi aktualdır. Gözqamaşdırıcı var-dövlətlə saf duyğular, ülvi məhəbbət üz-üzə qalır. Və tamaşa boyu ziddiyyətlərin mübarizəsi gedir. Təəssüf ki, şöhrət günəşi Bəhramın gözünü qamaşdırır, o, xəyanət yolunu seçir, amma sonda həqiqəti dərk edir. Müəllif sanki sevgisindən üz çevirmiş gənci cəzalandırır. Bu tamaşa gənclərə "sevginizdə qətiyyətli olun" mesajını ötürür.

Sevindirici fakt odur ki, rejissor peşəkarlığı, bədii tərtibat və aktyor oyunu tamaşada vəhdət təşkil edir. Nakam sevgi dramında obrazları Əməkdar artistlər İzaməddin Bağırov, Cəlal Məmmədov, Sədaqət Nuriyeva, aktyorlar İlahə Səfərova, Şəhla Məmmədova, İlqar İbrahimov canlandırır. Aktyor personalının canlandırdığı obrazlar sanki hər kəsin başına gələ biləcək bir qarşılıq yaradır.

Sumqayıt teatrının səhnəsində bu tamaşa bir neçə gün göstəriləcək. Artıq biletlər satışa çıxarılıb və tamaşanın seviləcəyi isə mütləqdir. Çünki gənclərə lazım olan sevgi mükəmməlliyi bu tamaşada özünü açıq şəkildə büruzə verir. Həm də sumqayıtlılar yaxşı tamaşaları sevərək izləyirlər.

***"Azərbaycan"***

Rus ədəbiyyatı

# Azad ruhlu tənha adam...

**"Gizli müşavir", "Talan", "İt gəzdirən qadın", "Tikan üstündə", "Qeyri-qanuni", "Yaylaqda", "Nigarançılıq", "İntiqam", "Kirayənişinlər", "Söhbət", "Diplomat", "Uşaqlar", "Volodya", "Evdə", "Vanka", "Reportyor", "İvanov", "Meşə adamı", "Vanya dayı", "Üç bacı", "Qağayı", "Albalı bağı", "Təklif", "Toy", "Yubiley" və başqa əsərləri Anton Çexovu bütün dünya ədəbiyyatsevərlərinə tanıtdı. Yaradıcılığa XIX əsrin 80-ci illərindən başlayan, əsərlərində yaşadığı dövrün reallıqlarını əks etdirən bu məşhur yazıçı haqqında görkəmli yazıçı Lev Tolstoy demişdi: "Əgər bütün rus ədəbiyyatı təsadüf ucbatından yoxa çıxsaydı və təkcə Çexovun hekayələri qalsaydı, bunlar əsl rus həyatı barədə bütün dünya xalqlarında aydın təsəvvür yaratmaq üçün kifayət edərdi".**



### Uşaqlığı olmayan uşaq

Rusiyanın cənubunda, sakinlərinin çoxunun bir-birini tanıdıqları liman şəhəri Taqanroqda 1860-cı il yanvarın 29-da dünyaya gəldi. Anton Çexov altı uşaqlı ailənin üçüncü övladıydı. Aleksandr, Nikolay, İvan, Mixail adlı qardaşları, Mariya adlı bacısı vardı.

İllər sonra, yazıçı kimi tanındığı zaman etiraf edəcəkdi: "Qabiliyyətlərimiz atamızdan, ruhumuz da anamızdan keçib". Baqqal dükanının sahibi olan atası Pavel Yeqoroviç təhsil almasa da, skripka çalır, yağlı boya ilə şəkillər çəkirdi.

Sakit təbiətli qadın idi anası Evgeniya Yakovlevna. Danışdığı maraqlı nağıllar, əhvalatlar balaca Antonun xəyallarına qol-qanad verirdi. Atası isə onun real həyata uyğunlaşmasını istəyirdi. O, Antonun tacir olmasını, anası isə təhsil almasını arzulayırdı. Nəhayət, qərar verildi. Antonu və Nikolayı 1867-ci ildə Taqanroqdakı yunan məktəbinə göndərdilər. Amma onlar bir il ərzində yunan dilini öyrənə bilmədilər. Atası onları məktəbdən çıxardı, Taqanroq Gimnaziyasına (sonradan Çexov Gimnaziyası adlandırıldı) qoydu.

Anton Çexovun baxdığı ilk tamaşa 1873-cü ildə, Taqanroqda "Gözəl Yelena" oldu. Bundan sonra fürsət tapan kimi məktəbdən qaçıb teatra gedirdi. O vaxtlar aktyorluğa da həvəs göstərirdi. Qardaşlarıyla tamaşalar hazırlayırdı. Tamaşaçıları isə qonşuları, qohumları olurdu. Bir sevdiyi məşğuliyyət isə mütaliə etmək idi.

"Uşaqlıqda mənim uşaqlığım olmayıb". Sonralar belə deyirdi Anton Çexov. Onun atası çox sərt adam idi, uşaqlarını baqqal dükanında satıcı kimi işlədir, çəkidə müştəriləri aldatmalarını tələb edirdi.

1876-cı ildə Pavel Yeqoroviç iflasa uğradı. O, borclu olduqlarından qurtulmaq üçün ailəsi ilə Moskvaya köçdü. On altı yaşlı Anton evdəki ağır əşyaları satıb pulunu ailəsinə göndərmək və gimnaziyanı bitirmək üçün Taqanroqda qalmalı oldu. O, çətin və kədərli günlərində təhsilini davam etdirir, özü və Moskvada sıxıntılar çəkən ailəsi üçün çörək pulu qazanırdı. Anton çox çalışır, məktəbdən qayıtdıqdan sonra ayrı-ayrı ailələrə gedir, ev dərsləri verirdi. İstirahət günləri evdə qalan əşyaları satıb pulunu atasına yollayırdı.

1879-ci ildə məktəbi bitirib Moskvaya, ailəsinin yanına köçdü. Bir il sonra Moskva Universitetinin Tibb fakültəsinə daxil oldu. Tələbəlik illərini də qayğısız keçirə bilmədi. Pul qazanmaq üçün yumor jurnallarına kiçik hekayələr yazdı. İlk yazılarını "Qardaşımın Qardaşı", "Uelss", daha çox isə gimnaziyada müəlliminin onu çağırdığı "Antoşa Çexonte" imzası ilə yazdı.

### Öz xəstəliyini qəbul edə bilməyən həkim

Anton Çexov uşaqlıqdan özünü tərbiyələndirməyə, nizam-intizamla yaşamağa çalışdı. O, hələ Taqanroqda vodevillər yazmağa səy göstərir, ancaq onları cırıb atırdı. "Atasızlıq", "Xoruz nahaq banlamır", "Daş qayaya rast gəlib" kimi ilk əsərləri buna görə qalmayıb. Qalan bircə adsız pyesi isə maraq doğurmur.

1879-cu ilin sonunda o, "Alim qonşuma məktub"unu qələmə alır. 1880-ci ilin əvvəllərində "Strekoza" jurnalında dərc olunan bu hekayə Çexovun ilk mətbu əsəri olur.

1884-cü ildə hekayələrindən ibarət "Melpomena nağılları" adlı ilk kitabı çapdan çıxır. Həmin il buraxılış imtahanlarını uğurla verib həkim diplomu alır. Artıq 250-yə yaxın hekayəsi dərc edilmiş Anton Çexov bundan sonra nə yazıçılıqdan, nə də təbiblikdən uzaqlaşır.

1884-cü il dekabrın 10-da yazırdı: "Üç gündən çoxdur ki, boğazımdan tamamilə yersiz qan gəlir... Səbəbi güman ki, damarın partlamasıdır..." Əslində, bu, ağ ciyər vərəminin ilk açıq əlamətləri idi. Xəstəliyini qəbul edə bilməyən həkim Çexov həmkarları tərəfindən müayinə olunmaqdan qorxduğunu etiraf edirdi.

Dolanışıq qayğıları vardı. 1885-ci ildə o yazırdı: "Təkcə Allaha bəllidir ki, necə çətinliklə tarazlığımı saxlayıram və asanlıqla büdrəyib müvazinətimi itirə bilərəm. Əgər gələn ay 20-30 manat az qazansam, mənə elə gəlir ki, tarazlığım cəhənnəmə vasil olacaq və mən batıb qalacağam".

1886-cı ildə nəşr edilən həcmcə daha böyük "Rəngbərəng hekayələr" adlı ikinci kitabı gənc yazıçını ədəbi mühitdə tanıtdı. O ilin mayında Sankt-Peterburqa getdi və Rusiyada çox yayılan "Novoye vremya"ya yazmaq təklifi aldı. 1887-ci ildə Çexovun "Alaqaranlıq" adlı yeni hekayələr kitabı işıq üzü gördü. Bir il sonra bu kitab Elmlər Akademiyası tərəfindən mükafatlandırıldı. Həmin ildən əsərləri "Severnı Vestnik"də dərc olunmağa başladı.

İlk dramı - "İvanov" 1887-ci ildə əvvəl Saratovda, sonra Moskvada Korş teatrında tamaşaya qoyuldu. Bundan sonra yazıçı dramaturq kimi tanınmağa başladı.

Səyahət etməyi çox sevən Çexov Azərbaycana ilk dəfə 1888-ci ilin yayında gəldi. Həmin ilin oktyabrında o, tanışına yazırdı: "Yayı əla keçirdim... Krıma, Batuma, Bakıya getdim... Təəssüratım çoxdur. Əgər Qafqazda yaşasaydım, orada nağıllar yazardım. Heyrətəşayan ölkədir!"

Azərbaycan oxucuları isə yazıçı Anton Çexovu ilk dəfə Firidun bəy Köçərlinin tərcümə etdiyi və 1904-cü ildə "Şərqi rus" qəzetində dərc olunan "At familiyası" hekayəsi ilə tanımağa başladılar.

### "Ölüm dəhşətdi... heç bir vaxt ölməyəcəyini bilmək daha dəhşətdi"

Qardaşı Nikolayın 1889-cu ildə, iyirmi səkkiz yaşında vərəm xəstəliyindən vəfat etməsi ona çox ağır təsir etdi. Depressiyadan qurtulmağa çalışarkən Hüquq fakultəsində oxuyan kiçik qardaşının dərs qeydləri diqqətini çəkdi: "Qərar verilməyənədək bütün diqqətimiz qatilin üstündə toplanır, amma həbsxanaya göndəriləndən sonra bütünlüklə unuduruq onu... Bəs həbsxanada nələr olur?" 1890-cı ildə Çexov çar hökumətinin sürgün və zindan adası olan Saxalinə səfərə çıxır. Orda zavallı insanların ağır həyatı ilə tanış olur. Geri döndükdən sonra müşahidələrini "Saxalin adası" adlı kitabında qələmə alır.

1892-ci ildə Moskvanın cənubuna, Melixovoya köçür. Həmin il qıtlıq və vəba hadisələrindən zərər çəkmiş insanlara yardımla yanaşı, üç məktəb, yanğınsöndürmə məntəqəsi və klinika tikdirir.

1897-ci ilin martında Çexov Moskvaya səfər edərkən ağciyərlərindən böyük bir qanaxma başlayır. 1898-ci ildə atasının vəfatından sonra o, Yaltada torpaq sahəsi alır. 1899-cu ildə anası və bacısı ilə birlikdə Melixovo kəndindən ora köçür. Yaltada tikdirdiyi evdə yaşayır. Ancaq məşhur yazıçının vəziyyəti gündən-günə ağırlaşır.

Görkəmcə yaraşıqlı olan Çexovun əsl sevgisini bacısı ilə konservatoriyada oxuyan Lidiya Mizinovada tapdığı söylənilir. Məhəbbəti qarşılıqsız deyildi. Ancaq evlənsələr, bu gözəl qadının onun diqqətini ailəsindən və yaradıcılıqdan ayıracağını düşünüb sevgisindən imtina edir. Çexovun uşaq yazıçısı Lidiya Avilova ilə də ciddi münasibəti evliliklə bitmir.

Çexovla aktrisa Olqa Knipper 1898-ci ildə Moskva Bədii Teatrda tanış olurlar. Yazıçının Moskva mühitindən ayrılmayan, sənətini ailəyə qurban verməyən qadınla 1901-ci ildə rəsmi nikaha girməsi çoxlarını təəccübləndirir.

1904-cü ilin mayında Mixail Çexov deyirdi: "Çexovu görən hər kəs gizli şəkildə sonun çox uzaq olmadığını düşünür və Çexov sona yaxınlaşanda bunu başa düşdü". Həmin il Çexov müalicə üçün arvadı ilə Almaniyanın Badenveyler şəhərinə gedir. İyulun 1-də gecə yuxudan oyanıb həkim çağırmağı xahiş edir. Həkim gəlir. Çexov deyir ki, oksigen dalınca adam göndərmək lazım deyil, çünki onu gətirənədək vəfat edəcək. Sonuncu cümləsi isə almanca söylədiyi "mən ölürəm" olur. "Ölüm dəhşətdi, həmişə yaşayacağını, heç bir vaxt ölməyəcəyini bilmək daha dəhşətdi" deyən yazıçı qırx dörd il ömür sürür.

Moskvada Novodeviçye qəbiristanlığında dəfn olunur. Yazıçı Aleksandr Kuprin yada salırdı: "Qəbiristanlıqdan asta-asta, dərin sükut içində qayıdırdıq. Mən Çexovun anasına yaxınlaşıb dinməzcə əlindən öpdüm. O, yorğun, zəif səslə dedi: "Gör bizə nə böyük dərd üz verdi... Antoşa yoxdur..."

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun məzarı ziyarət olunub





Fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə anım mərasimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra hərbi qulluqçular Mübariz İbrahimovun məzarını ziyarət edərək önünə gül dəstələri qoyublar. Tədbirdə çıxış edənlər Milli Qəhrəmanın həyat yolundan danışıb, onun göstərdiyi şücaət və qəhrəmanlıqdan bəhs ediblər. Qeyd olunub ki, Mübariz qısa ömür yaşasa da, canını Vətən yolunda fəda etməsi ilə özündən sonra gələn gənclərə örnək olacaq şanlı bir yol və ad-san qoyub gedib.

# "Azercell" "Busuu" tətbiqini abunəçilərinə təklif edir

Müasir texnologiyaların təqdim etdiyi sonsuz imkanları abunəçiləri üçün əlçatan etməyi hədəfləyən "Azercell Telekom" rəqəmsal məhsullar portfelini növbəti dəfə zənginləşdirir və xarici dilləri öyrənmək dil biliklərini inkişaf etdirmək istəyən abunəçiləri üçün "Busuu" tətbiqini təqdim edir.

Xarici dil öyrənmək üçün dünyanın 10 ən yaxşı mobil tətbiqi sırasında yer alan "Busuu"nun hazırda 90 milyondan artıq istifadəçisi var. "Busuu" virtual xarici dil müəllimi olaraq, eyni anda 12 dil (ingilis, rus, italyan, alman, fransız, ispan, portuqal, Çin, yapon, türk, ərəb və polyak) öyrənmək, xüsusi proqramla hazırlanmış qrammatika, yazı, dinləmə və danışıq məşqlərinə qatılmaq, "Busuu" sosial şəbəkəsində yeni dostlar qazanıb, onlarla ünsiyyət quraraq dil biliklərini genişləndirmək və Beynəlxalq McGraw-Hill sertifikatını əldə etmək imkanlarını bir arada cəmləyir. Xidmətin daha bir üstünlüyü də odur ki, qeydiyyatdan keçdikdən sonra hər bir tələbənin bilik səviyyəsi yoxlanır və o müvafiq dərs qrupuna təyin edilir.

Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan "Busuu" tətbiqini App Store və ya Play Store-dan yüklədikdən sonra, 0.20 AZN ödəməklə günlük paketi və ya 3 AZN ödəməklə aylıq paketi aktiv etmək mümkündür. Xidmətə qoşulma qaydası çox sadədir: günlük paketə abunə olmaq üçün smartfonun ekranında *696#YES, aylıq paket üçün isə *969#yes komandasının yığılması kifayətdir.

# *Ehsan ZAHİDOV:* "Bəzi namizədlərin polis orqanlarına çağırılması barədə yayılan məlumatların əsası yoxdur"

"Son günlər bir sıra kütləvi informasiya vasitələrində parlament seçkilərinə qatılan bəzi namizədlərin polis orqanlarına çağırılması barədə yayılan məlumatların heç bir əsası yoxdur və bu, dezinformasiyadır".

Bunu Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin rəisi polis polkovniki Ehsan Zahidov AZƏRTAC-a açıqlamasında deyib.

E.Zahidov bildirib ki, polis seçkiqabağı təşviqat prosesinin gedişinə müdaxilə etmir. Qanunla da polisin siyasi fəaliyyətə müdaxiləsi qadağandır. Lakin ictimai qaydanı qorumaq, ictimai təhlükəsizliyi təmin etmək polisin əsas vəzifəsidir. Polisin daha bir vəzifəsi kütləvi tədbirlər zamanı asayişin mühafizəsini həyata keçirməkdir. Ona görə də seçkiqabağı təşviqat prosesində ictimai qaydanı pozan hərəkətlərin qarşısı polis tərəfindən alınır və bu cür hallar üzrə araşdırma aparılır. Yalnız qeyd etdiyim əməllərlə əlaqədar, eləcə də namizədin seçicilərlə görüşünə mane olma, təşviqat-nəşr materiallarını qəsdən məhvetmə kimi hüquqpozma törətmiş şəxs polisə dəvət edilir, onunla profilaktik söhbətlər aparılır və ya məsələ qanunvericiliyə uyğun olaraq rəsmiləşdirilir, o cümlədən protokol tərtib edilir, yaxud araşdırmaların nəticələri üzrə digər qərarlar qəbul olunur.

DİN-in mətbuat xidmətinin rəisi bildirib ki, əgər qanun pozuntuları ilə bağlı polisin səlahiyyətlərinə aid məlumat deputatlığa namizəd tərəfindən daxil olubsa, bu halda da araşdırma aparılaraq lazımi tədbirlər görülür və təşəbbüskar məlumatlandırılır.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində qəbul Qaydalarına uyğun olaraq agentliyin sədri Ülvi Mehdiyev vətəndaşların növbəti qəbulunu həyata keçirib.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, qəbulda müraciətlər əsasən işlə təminedilmə ilə bağlı olub. Həmçinin müxtəlif ideya və təkliflər dinlənilib.

Müvafiq müraciətlər cavablandırılıb, həll edilməsi araşdırma tələb edən məsələlər ilə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

❖ ❖ ❖

Fevralın 7-də İqtisadiyyat nazirinin müavinləri Niyazi Səfərov Füzulidə, Sahib Məmmədov isə İmişlidə vətəndaşları qəbul ediblər.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, qəbula gələnlərin müraciətləri sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin alınması, torpaq üzərində mülkiyyət hüquqlarının qeydiyyatı, daşınmaz əmlakın özəlləşdirilməsi, heyvandarlıq təsərrüfatının yaradılması, sosial və sair məsələlərlə bağlı olub.

Müraciətlər dinlənilib, bəziləri yerindəcə həll olunub, digər məsələlər barədə aidiyyəti üzrə tapşırıqlar verilib.

# Bakı Şəhər Prokurorluğu Yasamal rayonunda baş verən intihar hadisəsi ilə bağlı məlumat yayıb

Fevralın 7-də paytaxt sakini, 1971-ci il təvəllüdlü Sənan Həsənovun müqavilə əsasında işlətdiyi Yasamal rayonu, H.Cavid prospekti, 19 ünvanındakı aptekdə özünü naqillə asaraq intihar etməsi barədə daxil olmuş məlumat əsasında prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Bakı Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, onun meyitinin xarici müayinəsi zamanı boyun nahiyəsində stranqulyasiya şırımından başqa hər hansı xəsarət və ya xəsarət izi aşkar olunmayıb.

Fakta görə, rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, məhkəmə-tibb ekspertizası təyin edilib.

İntiharın səbəblərinin araşdırılması məqsədilə mərhumun ailə üzvlərinin, qonşuların və digər şəxslərin ifadələri alınıb.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Beynəlxalq aləm

## "Toyota" Çindəki zavodlarını dayandıracaq



Koronavirus epidemiyası ucbatından Yaponiyanın "Toyota" avtomobil şirkəti Çindəki zavodlarının işini dayandıracaq. Şirkətin bəyanatında deyilir ki, bu qərar bir sıra amillər, o cümlədən yerli və regional hökumətlərin tövsiyələri, ehtiyat hissələrinin göndərilməsi və logistika öyrənildikdən sonra qəbul edilmişdir.

Hələliksə "Toyota" fevralın 17-dən etibarən normal işi bərpa etməyə hazırlaşacaq.

Şirkət əlavə etmişdir ki, yerli hakimiyyət orqanlarının işini asanlaşdırmaq məqsədilə yeni infeksiyanın daha çox tüğyan etdiyi rayonlarda sakinlərə yardım kampaniyasına qoşulacaq. Məsələn, "Toyota" həmin rayonlara tibbi maskalar, personalın biomüdafiəsi üçün kostyumlar, dezinfeksiya vasitələri göndərəcək.

Şirkətin Çində avtomobil və ehtiyat hissələrinin istehsalı üzrə 12 zavodu var.

Dünənki məlumata görə, Çində koronavirusa 31211 yoluxma halı təsdiqini tapmışdır. Digər ölkələrdə yoluxma hallarının sayı 220-dən çoxdur. 638 xəstə dünyasını dəyişmiş, 1540-dan çox xəstə sağalmışdır.

## Aİ Qərbi Balkanda "oyun qaydaları"nı dəyişdirir



Avropa İttifaqında (Aİ) Qərbi Balkanın tərəfinə genişlənməyə istiqamətlənmiş fəal təşəbbüslər səsləndirilir. Buna qarşı təkidlə Fransa çıxış etsə də, Brüssel Şimali Makedoniya və Albaniyanın Aİ-yə daxil olması üçün danışıqlara başlamaq məqsədilə hər şey edir. Parisin narazılığına baxmayaraq, Avropa Komissiyası yeni böyükmiqyaslı genişlənmə planı təqdim etmişdir. Plana əsasən, artıq 2025-ci ildə Aİ Qərbi Balkan dövlətlərindən birincisini öz sıralarına qəbul edə biləcək.

Aİ-nin Qərbi Balkan üzrə yeni strategiyasını genişlənmə üzrə komissarı Oliver Varheli təqdim etmişdir. Təklifin əsas məqsədi Aİ-nin Balkan regionu üzrə yeni perspektivini nümayiş etdirməkdir.

Danışıqlar prosesinə daha çox dinamiklik vermək üçün Avropa Komissiyası danışıqların mövzularını altı blokda qruplaşdırmağı təklif edir. Bunlar "fundamental əsaslar", "daxili bazar", "rəqabətqabiliyyətlilik və inklüziv artım", "ekoloji gündəlik", "dayanıqlı əlaqələr, resurslar və kənd təsərrüfatı" və "xarici əlaqələr"dir.

Əgər namizəd ölkə xüsusilə qanunun aliliyi sahəsində ciddi tənəzzül nümayiş etdirsə, danışıqlar müəyyən sahələrdə müvəqqəti, ağır hallarda isə tamamilə dayandırılacaq.

## Yəməndə "əl-Qaidə"nin başçısı öldürüldü



ABŞ hərbçiləri Yəməndə "əl-Qaidə" terrorçu qruplaşmasının başçısı Qasım Reymini öldürmüşlər. Bu barədə Ağ evin saytı məlumat verir.

Məlumatda deyilir ki, ABŞ Prezidenti Donald Trampın tapşırığı ilə Yəməndə keçirilmiş anti-terror əməliyyatı nəticəsində Reymi zərərsizləşdirilmişdir. Sayt qeyd edir ki, "Reyminin ölümü Ərəbistan yarımadasında "əl-Qaidə"ni və qlobal "əl-Qaidə" hərəkatını daha çox dağıdır və bizi bu qruplaşmaların milli təhlükəsizliyimiz üçün yaratdığı təhdidləri aradan qaldırmağa yaxınlaşdırır".

## Pompeo və Quaydo Maduronu devirmək üçün səyləri ikiqat artıracaqlar



ABŞ-ın dövlət katibi Mayk Pompeo və təxminən bir il əvvəl özünü prezident elan etmiş Venesuela müxalifətinin lideri Xuan Quaydo "Nikolas Maduro diktaturasına son qoymaq üçün" səyləri ikiqat artırmaq niyyətindədirlər. Müvafiq bəyanatla Vaşinqtonda Pompeo ilə Quaydonun görüşündən sonra Dövlət Departamentinin nümayəndəsi Morqan Ortaqus çıxış etmişdir.

Ortaqus qeyd etmişdir ki, siyasətçilər "Venesuelada demokratiyanı, iqtisadi çiçəklənməni və xalqın ləyaqətini bərpa etmək" niyyətindədirlər.

Xatırladaq ki, bundan əvvəl Xuan Quaydo ABŞ Prezidenti Donald Trampla görüşmüşdür. O, həmçinin fevralın 4-də Konqresdə Trampın xalqa ənənəvi illik müraciətini dinləmişdir. ABŞ lideri çıxışı zamanı Venesuelada "tiraniyanı məhv edəcəyini" vəd vermişdir.

## Əfqanıstanda dinc sakinlər həlak oldu



Əfqanıstanın Fəryab əyalətində "Taliban" radikal hərəkatının silahlıları yaşayış məhəlləsini minaatanlardan atəşə tutmuşlar. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Məlumata görə, hücum Kaysar qəzasında dinc sakinlərin ölümünə səbəb olmuşdur. Orada bir qadın və üç uşaq həlak olmuşdur. Bir neçə mərmi ailənin evini dağıtmışdır.

"Sinxua" agentliyinin xəbərinə görə, daha bir neçə sakin yaralanmışdır. Yaralıların arasında bir qadın da var. Onu xəstəxanaya çatdırmışlar. Yerli polisdən bildirmişlər ki, taliblər bu hərəkətləri ilə əhali arasında təlaş yaratmağa çalışırlar.

# İstirahət günlərində bəzi bölgələrdə yolların buz bağlama ehtimalı var




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti istirahət günlərində - fevralın 8-9-da gözlənilən hava proqnozunu açıqlayıb.

Departamentdən AZƏRTAC-a verilən məlumata görə, Böyük və Kiçik Qafqaz bölgəsində arabir qar yağacağı, duman olacağı gözlənilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq. Havanın temperaturunun gecə 3-8° şaxta, gündüz 0-5° isti olacağı ehtimalı var. Gecə və səhər yolların buz bağlama ehtimalı var.

Lənkəran-Astara bölgəsində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Dağlarda duman olacaq, şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 5-8° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 0-5° isti olacağı ehtimal edilir.

Qazax-Gəncə zonasında arabir yağış yağacağı, yağan yağışın fevralın 9-da sulu qara, qara keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq, arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-4° şaxta, gündüz 5-8° isti olacağı ehtimalı var.

Aran rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq, arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 7-12° isti olacağı bildirilir.

Naxçıvan Muxtar Respublikasında havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq, arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, gündüz 2-7° isti olacağı proqnozlaşdırılır. Gecə və səhər yolların buz bağlama ehtimalı var.

Paytaxtda isə fevralın 8-də gözlənilən yağıntı fevralın 9-da sulu qara, qara keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək, fevralın 8-i axşam və fevralın 9-da güclü olacaq. Havanın temperaturunun fevralın 8-də gecə 4-7°, gündüz 8-11° isti, fevralın 9-da gecə və gündüz 1-3° isti olacağı gözlənilir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi və kollektivi Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elşad Həsənov və Yasamal Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elşad Həsənov və Yasamal Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Əli və Məhəmməd Abdullayev qardaşlarına ataları

**İZZƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimova əzizi

**İVAN MÜTÜ OĞLU ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və Aparat işçiləri Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və Aparat işçiləri AHİK sədrinin müavini Aqil Dadaşova əzizi

**FİRUDİN RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

**Ünvan**



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6975
Sifariş 395
Qiymәti 40 qəpik